RƏSMİ DÖVLƏT QƏZETİ

AZƏRBAYCAN

№ 210 (10230) 14 noyabr 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



Dublin Sammiti Azərbaycanın qlobal siyasi məkanda rolunun genişləndiyini nümayiş etdirdi

Azərbaycanın Avropa ilə münasibətlərində enerji təhlükəsizliyi mühüm yer tutmaqda davam edir. Xüsusən son illər beynəlxalq enerji bazarlarında baş verən dəyişikliklər, təchizatın şaxələndirilməsi zərurəti və alternativ mənbələrə tələbat ölkəmizin bu sahədə rolunu daha da artırıb.

2022-ci ildə Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması əməkdaşlığın inkişafında mühüm mərhələ oldu. "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya qaz tədarükünün genişlənməsi ölkəmizin etibarlı enerji tərəfdaşı kimi mövqeyini daha da gücləndirdi. Lakin Azərbaycanın Avropa üçün strateji əhəmiyyəti artıq yalnız ənənəvi enerji resursları ilə məhdudlaşmır. Bərpaolunan enerji layihələri, Xəzərin külək enerjisi potensialı, günəş enerjisinin inkişafı, Mərkəzi Asiya ilə "yaşıl enerji" bağlantıları və Qara dəniz üzərindən elektrik enerjisinin ötürülməsi təşəbbüsləri əməkdaşlığa yeni məzmun verir. Bu prosesdə Azərbaycanın üstünlüyü ənənəvi enerji resurslarının ixracatçısı olmaqla yanaşı, gələcəkdə "yaşıl enerji" istehsalı və tranzitində də mühüm mövqe qazanmaq potensialına malik olmasıdır. Dublin Sammitinin iqtisadi rəqabətqabiliyyətlilik və enerji təhlükəsizliyi gündəliyi də məhz bu istiqamətdə əməkdaşlığın aktuallığını təsdiqləyir.

Digər mühüm amil nəqliyyat və logistika bağlantılarıdır. Qlobal ticarət marşrutlarının dəyişdiyi, geosiyasi risklərin artdığı və təchizat zəncirlərinin dayanıqlılığının strateji əhəmiyyət qazandığı bir dövrdə Orta dəhliz Avropa ilə Asiya arasında alternativ bağlantı kimi ön plana çıxır. Çin və Mərkəzi Asiyadan Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanan bu marşrut ölkəmizin coğrafi mövqeyini iqtisadi və geosiyasi üstünlüyə çevirmək imkanlarını genişləndirir.

Orta dəhlizin inkişafı yalnız yeni yolların və logistika infrastrukturlarının qurulması demək deyil. Burada gömrük prosedurlarının sadələşdirilməsi, rəqəmsal həllərin tətbiqi, sərhəd-keçid proseslərinin sürətləndirilməsi, tarif siyasətinin koordinasiyası və nəqliyyat sistemlərinin qarşılıqlı uyğunlaşdırılması həlledici əhəmiyyət daşıyır. Azərbaycanın Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, inkişaf etdirilmiş dəmir yolu infrastrukturu, regional bağlantı layihələri bu baxımdan mühüm imkanlar yaradır.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə imzalanmış Strateji Tərəfdaşlıq Bəyannaməsində Orta dəhlizin inkişafına ayrıca yer ayrılması da diqqətəlayiqdir. Bu, layihənin yalnız region ölkələrinin deyil, daha geniş Avropa iqtisadi və siyasi dairələrinin maraq göstərdiyi strateji istiqamətə çevrildiyini nümayiş etdirir. Əslində, enerji və nəqliyyat əməkdaşlığı Azərbaycanın Avropa üçün əhəmiyyətini bir-birini tamamlayan iki istiqamətdə artırır. Bir tərəfdən, ölkəmiz Avropanın enerji təchizatının şaxələndirilməsinə töhfə verir, digər tərəfdən isə Avropa ilə Asiya arasında iqtisadi əlaqələrin gücləndirilməsi üçün mühüm tranzit imkanları təqdim edir. Bu iki amilin birləşməsi Azərbaycanla Avropa arasında münasibətlərin uzunmüddətli strateji xarakterini gücləndirir.

6

Prezident İlham Əliyevin İrlandiyaya işgüzar səfəri başa çatıb

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin İrlandiyaya işgüzar səfəri noyabrın 13-də başa çatıb.



AZƏRTAC xəbər verir ki, Dublin Beynəlxalq Aeroportunda Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı rəsmi şəxslər yola saldılar.

Zəfər yolundan başlayan Böyük qayıdış

6 il öncə Füzuli-Şuşa yolunun təməli qoyulmuşdur

Müharibənin başa çatmasından cəmi 6 gün sonra Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri, Füzuli-Şuşa avtomobil yolunun təməlinin qoyulması bu quruculuq salnaməsinin ilk səhifələrindən biri idi. Füzulinin Alxanlı istiqamətində atılan həmin addımın arxasında yüz minlərlə insanın yurduna qayıdış arzusu, bütöv bir xalqın yaddaşı və gələcəyə böyük inamı dayanırdı. Sonradan Zəfər yolu adlandırılan 101 kilometrlik bu magistral, sadəcə, Füzulidən Şuşaya uzanan yol deyildi, həm də 30 ilə yaxın davam edən ayrılığın aradan qaldırılmasının, azad edilmiş torpaqlara qayıdışın və yeni həyatın başlanmasının rəmzi idi.



6 il sonra həmin tarixi günə nəzər salarkən görürük ki, Füzulidə qoyulan təməl üzərində bütöv bir quruculuq strategiyası formalaşıb. Qarabağ və Şərqi Zəngəzur bu gün Azərbaycanın ən genişmiqyaslı bərpa, infrastruktur və iqtisadi inkişaf layihələrinin həyata keçirildiyi ərazilərdir. Burada yollar çəkilir, tunellər salınır, körpülər tikilir, elektrik, su, qaz və rabitə xətləri yenilənir, yaşayış məhəllələri, məktəblər, xəstəxanalar və istehsal müəssisələri yaradılır. Dağıntıların yerində müasir şəhərsalma prinsiplərinə əsaslanan yeni yaşayış məkanları formalaşır.

3

Azərbaycan-Böyük Britaniya əlaqələrində yeni səhifə

Strateji tərəfdaşlıq haqqında sənəd iki ölkə arasındakı qarşılıqlı etimada əsaslanır



Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə Böyük Britaniyaya etdiyi tarixi səfər, baş nazir Con Meycor ilə keçirdiyi görüş və imzalanan mühüm sənədlər Azərbaycan-Britaniya münasibətlərində uzunmüddətli və qarşılıqlı faydalı əməkdaşlığın möhkəm təməlini qoyub. Həmin dövrdən etibarən iki ölkə arasında müxtəlif istiqamətlərdə əlaqələr ardıcıl şəkildə genişlənərək, dərin siyasi dialoq və mühüm iqtisadi nailiyyətlərlə müşayiət olunub. Bununla yanaşı, humanitar sahədə həyata keçirilən intensiv mübadilələr xalqlarımız arasındakı bağları daha da gücləndirib və ikitərəfli münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Bütün bu uğurlu inkişaf yolunun məntiqi nəticəsi olaraq, bu gün Azərbaycan Cənubi Qafqaz regionunda və daha geniş Xəzər dənizi hövzəsində Böyük Britaniyanın ən etibarlı strateji tərəfdaşı kimi çıxış edir. İki ölkə arasında 1994-cü və 1998-ci illərdə imzalanmış sənədlərə söykənən uzunmüddətli və dinamik əlaqələr hazırda qarşılıqlı hörmət və ortaq maraqlar əsasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir. Tərəflər BMT Nizamnaməsinə və beynəlxalq hüququn əsas prinsiplərinə, xüsusilə də suverenlik, müstəqillik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına sadiqliklərini bir daha nümayiş etdirirlər. Eyni zamanda Birləşmiş Krallıq 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvəsi Bəyannaməsinin önəmini xüsusi vurğulayaraq, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımları alqışlayır.

6

Azərbaycanda şəhərsalma - zəngin keçmiş, modern müasirlik, texnoloji gələcək


Bu gün Bakının memarlıq siması tarixi irslə müasirliyin vəhdətində formalaşır. İçərişəhərin qədim qala divarlarından Heydər Əliyev Mərkəzinədək, XIX əsrin memarlıq nümunələrindən "Alov qüllələri"nədək paytaxtın çoxqatlı inkişaf tarixini əks etdirir. Dənizkənarı bulvarın genişləndirilməsi, yeni parkların salınması, ictimai məkanların abadlaşdırılması, sənaye tullantıları ilə çirklənmiş ərazilərin müasir yaşayış və biznes zonalarına çevrilməsi şəhər mühitinin keyfiyyətcə dəyişməsinə xidmət edir. Vaxtilə "Qara şəhər" kimi tanınan ərazidə "Ağ şəhər"in salınması ekoloji bərpa və müasir şəhərsalmanın uğurlu nümunələrindəndir.



Paytaxtın gələcək inkişafı isə 2040-cı ilədək Bakı şəhərinin Baş planı əsasında müəyyənləşdirilib. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin koordinasiyası ilə hazırlanan və 2023-cü il dekabrın 30-da təsdiq edilən bu strateji sənəd paytaxtın daha balanslı, dayanıqlı və çoxmərkəzli şəhərə çevrilməsini nəzərdə tutur. Baş planın əsas istiqamətləri tarixi-memarlıq irsinin qorunması, nəqliyyat və sosial infrastrukturun təkmilləşdirilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, yaşıllıq sahələrinin genişləndirilməsidir. Sənəddə nəqliyyat sıxlığının azaldılması, metro və dəmir yolu şəbəkələrinin genişləndirilməsi, ictimai nəqliyyatın inkişafı, velosiped yollarının yaradılması, piyada hərəkəti üçün əlverişli məkanların artırılması kimi məsələlər xüsusi yer tutur.

7

Ermənistan konstitusiyasını dəyişə biləcəkmi?



Ermənistanın mövcud konstitusiyasına əsasən yeni konstitusiyanı referenduma çıxarmaq üçün deputatların üçdəikisinin dəstəyi tələb olunur. Hakim partiyanın isə hazırda bunun üçün əlavə altı səsə ehtiyacı var. Üstəlik, Ermənistanın 13 müxalifət qüvvəsi konstitusiya dəyişikliklərinə qarşı birgə mövqe nümayiş etdirib. Müxalifət bu prosesi Azərbaycanın tələbləri ilə əlaqələndirir və Paşinyana qarşı siyasi mübarizə vasitəsinə çevirməyə çalışır. Müxalifət artıq ictimaiyyət arasında bu istiqamətdə fəal təbliğat işi də aparır.

Paşinyan hökuməti yeni konstitusiya layihəsini təqdim etməklə iki məqsəd güdür. Birincisi, Azərbaycanla sülh sazişi qarşısında duran əsas maneələrdən birinin aradan qaldırılması istiqamətində siyasi iradəsini nümayiş etdirməkdir. İkincisi isə bu məsələni Ermənistan daxilində sülhün davam etdirilməsi ilə münaqişə siyasətinə qayıdış arasında seçim kimi təqdim etməkdir. Noyabr ayında, böyük ehtimalla isə gələn həftə layihə təqdim olunacaq. Lakin bundan sonrakı mərhələ daha mürəkkəb olacaq. Əsas məsələ Müstəqillik Bəyannaməsinə istinadın layihədən çıxarılması deyil, həmin dəyişikliyin hüquqi qüvvə qazanmasıdır. Azərbaycan üçün də əsas nəticə məhz bu olacaq. Çünki sülh prosesində həlledici əhəmiyyət daşıyan məsələ siyasi vədlərdən daha çox ərazi iddialarına hüquqi əsas yaradan müddəaların Ermənistanın konstitusion sistemindən çıxarılmasıdır.

5

Ev təsərrüfatlarının uçotu rəqəmsallaşdırılır

Yenilik ölkənin aqrar sektoruna nə vəd edir?

Ev təsərrüfatları ilə bağlı dəqiq statistik məlumatların toplanması aqrar sektorda mövcud vəziyyətin qiymətləndirilməsi və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün vacibdir. İlk növbədə nəzərə almaq lazımdır ki, hökumətin aqrar sektorun inkişafı ilə bağlı dəqiq strateji proqramları olmalıdır. Belə proqramların hazırlanması üçün isə faktlara əsaslanan statistik məlumatlar tələb olunur. Hökumət həmin məlumatları təhlil etməklə hansı regionlarda ev təsərrüfatlarının inkişaf etdiyini, hansı ərazilərdə istehsalın zəif olduğunu müəyyənləşdirə bilər. Bu günə qədər Azərbaycanda belə bir statistik baza lazımi səviyyədə formalaşmamışdı. Bu da dəqiq təhlillərin aparılmasını çətinləşdirirdi.



Kənd təsərrüfatında dəqiq statistik məlumat bazasının formalaşdırılması ilk növbədə dövlətin aqrar siyasətinin düzgün qurulması üçün vacibdir. Çünki istehsalın real həcmi, təsərrüfatların sayı və regionlar üzrə fəaliyyət göstəriciləri haqqında məlumatı bilmədən aqrar sahənin inkişafına dair effektiv qərarlar qəbul etmək çətindir.

4

"Ali təhsil müəssisələrinə "Tədqiqat universiteti" statusu verilməsi üçün Tələblər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 610 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 378 **Bakı şəhəri, 13 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 29 dekabr tarixli 610 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, №12, maddə 2555 (Cild I) ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinə "Tədqiqat universiteti" statusu verilməsi üçün Tələblər" yeni redaksiyada verilsin *(əlavə olunur)*.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.

"Dövlət icra məmurları haqqında", "İcra haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 389-VIIQD nömrəli Qanununun qəbul edilməsi ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 379 **Bakı şəhəri, 13 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Dövlət icra məmurları haqqında", "İcra haqqında" və "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2026-cı il 21 aprel tarixli 389-VIIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 2 avqust tarixli 123 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 8, maddə 534 (Cild I); 2026, № 2, maddə 173) ilə təsdiq edilmiş "İcra sənədinin verilməsi üçün əsas olan qərarın, habelə qanuna əsasən icra sənədi sayılan sənədin ləğv edilməsi ilə əlaqədar icraata xitam verildikdə, icra hərəkətlərinin həyata keçirilməsi ilə bağlı xərclərin dövlət büdcəsi hesabına ödənilməsi Qaydaları"nın 4-cü hissəsinin "c" bəndinin beşinci abzasında "uşağın" sözündən sonra ", habelə borclu hüquqi şəxsin icra orqanının rəhbərinin" sözləri əlavə edilsin.

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 12 yanvar tarixli 5 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 1, maddə 29 (Cild I); 2022, № 4, maddə 386, № 8, maddə 1024; 2023, № 8 (II kitab), maddə 1266; 2025, № 12 (II kitab), maddə 1216) ilə təsdiq edilmiş "Giriş-çıxış və qeydiyyat" idarələrarası avtomatlaşdırılmış məlumat-axtarış sisteminin istismarının təşkili Qaydaları"nın 6.7.1.10-cu yarımbəndində "borclunun" sözü "borclu fiziki şəxsin, hüquqi şəxsin icra orqanının rəhbərinin" sözləri ilə əvəz edilsin.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 may tarixli 92 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 380 **Bakı şəhəri, 13 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin altıncı abzasını rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın "7. Tədbirlər Planı" hissəsinin 2.2.3-cü yarımbəndinin 4-cü abzasının və Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın "10. Dövlət Proqramına dair Tədbirlər Planı" hissəsinin 3.1.9-cu yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 19 may tarixli 92 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 5, maddə 470 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin strukturuna daxil olmayan tabeliyindəki qurumların siyahısı"na "Hacıqabul Uşaq və Ailələrə Dəstək Mərkəzi" sözlərindən sonra aşağıdakı sözlər əlavə edilsin:

"Füzuli Ailə Mərkəzi
Qazax Ailə Mərkəzi
Şamaxı Ailə Mərkəzi".

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 381 **Bakı şəhəri, 13 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164 (Cild I); 2024, № 1, maddə 127, № 2, maddə 244, № 4, maddə 465, № 7, maddələr 891, 903, № 9, maddələr 1045, 1106, № 10, maddələr 1165, 1178, № 11, maddə 1257, № 12 (I kitab), maddələr 1319, 1324; 2025, № 2, maddə 187, № 3, maddələr 266, 268, № 5, maddə 512, № 9, maddələr 845, 868, № 10, maddə 971, № 12 (II kitab), maddə 1261; 2026, № 1, maddə 80, № 2, maddə 178, № 4, maddə 383, № 5 (II kitab), maddələr 452, 466, № 7 (II kitab), maddələr 732, 737; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2026-cı il 9 sentyabr tarixli 282 nömrəli və 22 sentyabr tarixli 311 nömrəli qərarları) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1604 31 000 0 alt yarım mövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15" rəqəmləri "15 (31.12.2030-cu il tarixinədək 15%, lakin 1 kq 200 ABŞ dollarından az olmamaqla)" sözləri ilə əvəz edilsin;

1.2. 2402 10 000 2, 2402 10 000 9, 2402 20 100 0, 2402 20 900 0, 2402 90 000 2, 2402 90 000 3, 2402 90 000 9 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütunlarına "1000 ədəd, 0,5 ABŞ dolları" sözlərindən sonra "(31.12.2030-cu il tarixinədək 15%, lakin 1000 ədədinə 3,0 ABŞ dollarından az olmamaqla)" sözləri əlavə edilsin;

1.3. 5903 10 100 0 alt yarım mövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "5" rəqəmi "5 (31.12.2030-cu il tarixinədək 15%)" sözləri ilə, 5903 10 900 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə faizlə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "0" rəqəmi "0 (31.12.2030-cu il tarixinədək 15%)" sözləri ilə əvəz edilsin.

2. Bu Qərarın 1.1-ci və 1.2-ci bəndləri bu Qərarın dərc edildiyi gündən 90 (doxsan) gün, 1.3-cü bəndi isə 30 (otuz) gün sonra qüvvəyə minir.

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

"Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

№ 383 **Bakı şəhəri, 13 noyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin fəaliyyətinin təkmilləşdirilməsi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 10 iyul tarixli 720 nömrəli Fərmanının 8.1.3-cü yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərin fəaliyyətində səmərəliliyin artırılması ilə bağlı bir sıra normativ hüquqi aktların təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 4 iyun tarixli 257 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 6, maddə 1146 (Cild I); 2025, № 3, maddə 269, № 10, maddə 964) aşağıdakı məzmunda 3-2-ci hissə əlavə edilsin:

"3-2. Bu Qərar Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin strukturuna daxil olan qurumlara və ya tabeliyində olan hüquqi şəxslərə, eləcə də onların strukturuna daxil olan və ya tabeliyində olan hüquqi şəxslərə, habelə onlar tərəfindən hüquqi şəxslərin yaradılması və yenidən təşkili, hüquqi şəxslərdə iştirak paylarının (səhmlərin) əldə edilməsi yolu ilə paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərə şamil edilmir.".

Əli ƏSƏDOV,
Azərbaycan Respublikasının Baş naziri

Leyla Əliyeva COP31 çərçivəsində bir sıra görüşlər keçirib

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva noyabrın 12-də BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində BMT-nin Məskunlaşma Proqramının Şərqi Avropa və Mərkəzi Asiya üzrə Regional Ofisinin direktoru Erfan Ali ilə görüş keçirib.





AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın dayanıqlı şəhərsalma, ətraf mühitin mühafizəsi və iqlim dəyişmələrinə uyğunlaşma istiqamətində həyata keçirdiyi tədbirlər barədə məlumat verilib. Bu xüsusda IDEA İctimai Birliyinin şəhər mühitinin yaxşılaşdırılması, yaşıllıq sahələrinin genişləndirilməsi və ekoloji maarifləndirməyə yönəlmiş layihə və təşəbbüsləri diqqətə çatdırılıb.

Müzakirələr çərçivəsində sahilyanı şəhərlərin iqlim dayanıqlılığının gücləndirilməsi, müvafiq risklərin qiymətləndirilməsi və şəhərsalma kontekstində ekoloji amillərin nəzərə alınmasının vacibliyi vurğulanıb.

Bundan əlavə, IDEA İctimai Birliyi və UN-Habitat arasında şəhərlərin yaşıllaşdırılması, dayanıqlı yaşayış mühitinin formalaşdırılması və iqlim dəyişmələrinə uyğunlaşma sahələrində əməkdaşlıq imkanları müzakirə olunub. Bu istiqamətdə IDEA İctimai Birliyi və UN-Habitat tərəfindən birgə təşəbbüslərin həyata keçirilməsi imkanlarına toxunulub.

* * *

Leyla Əliyeva noyabrın 12-də həmçinin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) baş katibi Celeste Saulo ilə görüş keçirib.

Görüşdə iqlim dəyişmələrinin təsirlərinin qiymətləndirilməsi, meteoroloji müşahidələrin təkmilləşdirilməsi və elmi məlumatlardan səmərəli istifadə məsələləri ətrafında fikir mübadiləsi aparılıb. Bu xüsusda Azərbaycanda iqlim monitorinqinin gücləndirilməsi, müasir texnologiyaların tətbiqi, eləcə də iqlim hadisələri ilə bağlı erkən xəbərdarlıq sistemlərinin inkişafının əhəmiyyəti qeyd olunub.

Müzakirələr çərçivəsində Xəzər dənizinin səviyyəsində müşahidə olunan dəyişikliklərin elmi baxımdan öyrənilməsi və bu istiqamətdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi imkanlarına toxunulub. Xüsusilə dənizin səviyyəsindəki dəyişikliklərin daha dərindən araşdırılması məqsədilə uzunmüddətli iqlim müşahidələrinin, meteoroloji məlumatların və külək rejiminə dair göstəricilərin birgə təhlili perspektivləri müzakirə edilib.

Bundan əlavə, Azərbaycanda gənc tədqiqatçıların iqlim araşdırmaları sahəsində bilik və bacarıqlarının artırılması, beynəlxalq elmi təcrübə mübadiləsi və müvafiq təlim proqramlarının təşkili istiqamətində IDEA İctimai Birliyi və ÜMT-nin əməkdaşlıq imkanları barədə fikir mübadiləsi aparılıb.

Leyla Əliyeva COP31 çərçivəsində Xəzər dənizinin ekoloji problemlərinə dair müzakirələrdə iştirak edib









BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 31-ci sessiyası (COP31) çərçivəsində IDEA İctimai Birliyi və Beynəlxalq Təbiəti Mühafizə İttifaqının (IUCN) tərəfdaşlığı ilə "Geri çəkilən dəniz: Xəzər bölgəsində iqlim, təbiət və insanlar" mövzusunda tədbir təşkil edilib.

AZƏRTAC xəbər verir ki, tədbirin açılışında çıxış edən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva qeyd edib ki, Xəzər dənizinin səviyyəsinin azalması burada yaşayan nadir canlı növləri, o cümlədən nərə balıqları və Xəzər suitilərinin mövcudluğunu təhlükə altına qoyur. O, dənizin ekoloji problemlərinin həlli üçün elmi tədqiqatların genişləndirilməsinin, beynəlxalq əməkdaşlığın və birgə fəaliyyətin vacibliyini vurğulayıb.

Çıxışında IDEA İctimai Birliyinin bu istiqamətdə həyata keçirdiyi layihələrə toxunan Leyla Əliyeva bildirib ki, Xəzər suitilərinin sayının azalmasının səbəblərini araşdırmaq məqsədilə elmi ekspedisiyalar təşkil edilib, balıq ehtiyatlarının bərpası üçün müxtəlif növ balıq körpələri su hövzələrinə buraxılıb.

Leyla Əliyeva IDEA-nın Xəzər sahillərinin təmizlənməsi istiqamətində həyata keçirdiyi təşəbbüslər barədə də məlumat verib. Qeyd olunub ki, 2011-ci ildən etibarən təşkil edilən sahilyanı təmizlik aksiyalarına 7 minə yaxın könüllü qoşulub, 120 tondan çox tullantı toplanaraq təkrar emala yönəldilib. O, Xəzər dənizinin gələcəyinin bu gün qəbul edilən qərarlardan asılı olduğunu vurğulayaraq, onun zəngin təbiətini gələcək nəsillər üçün qorumağa çağırıb.

Tədbirin açılışında həmçinin IUCN-in baş direktorunun müavini Stüart Maqinnis və BMT-nin Avropa İqtisadi Komissiyasının (UNECE) Dayanıqlı Enerji Bölməsinin direktoru Dario Liquti çıxış ediblər.

Daha sonra keçirilən panel müzakirələrində IDEA İctimai Birliyinin Xəzər tədqiqatları üzrə eksperti Elnur Səfərov, Böyük Britaniyanın Lids Universitetinin nümayəndəsi Saymon Qudman, "Great Whale Conservancy" təşkilatının təsisçisi və icraçı direktoru Maykl Fişbax, eləcə də Cenevrə Universitetinin nümayəndəsi, Caspisnet şəbəkəsinin sədri Aleksandr Hedjazi iştirak ediblər.

Müzakirələr zamanı Xəzər dənizinin səviyyəsinin azalmasına təsir edən iqlim amilləri, biomüxtəlifliyin qorunması, dəniz ekosistemlərinin dəyişən şəraitə uyğunlaşdırılması və regional əməkdaşlığın gücləndirilməsi məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Tədbirdə IDEA İctimai Birliyi tərəfindən hazırlanmış Xəzər dənizinin mövcud ekoloji vəziyyətinə həsr olunan qısametrajlı sənədli film nümayiş edilib.



Zəfər yolundan başlayan Böyük qayıdış

6 il öncə Füzuli-Şuşa yolunun təməli qoyulmuşdur

2020-ci il noyabrın 16-da Füzulidə atılan addım Qarabağda Zəfərlə başlayan yeni tarixin növbəti mərhələsinin - işğaldan azad edilmiş torpaqlarda həyatın bərpasının, dağıdılmış yurd yerlərinin dirçəldilməsinin və Böyük qayıdışın gerçəkləşdirilməsinin başlanğıcını qoydu. Vətən müharibəsində qazanılmış qələbənin sevinci bütün ölkəni bürüdüyü, Şuşanın azadlığı ilə milli qürur və iftixar hissinin zirvəyə yüksəldiyi vaxtda Azərbaycan Qarabağın gələcəyini qurmağa başlamışdı.

Müharibənin başa çatmasından cəmi 6 gün sonra Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş Füzuli və Cəbrayıl rayonlarına səfəri, Füzuli-Şuşa avtomobil yolunun təməlinin qoyulması bu quruculuq salnaməsinin ilk səhifələrindən biri idi. Füzulinin Alxanlı istiqamətində atılan həmin addımın arxasında yüz minlərlə insanın yurduna qayıdış arzusu, bütöv bir xalqın yaddaşı və gələcəyə böyük inamı dayanırdı. Sonradan Zəfər yolu adlandırılan 101 kilometrlik bu magistral, sadəcə, Füzulidən Şuşaya uzanan yol deyildi, həm də 30 ilə yaxın davam edən ayrılığın aradan qaldırılmasının, azad edilmiş torpaqlara qayıdışın və yeni həyatın başlanmasının rəmzi idi.

6 il sonra həmin tarixi günə nəzər salarkən görürük ki, Füzulidə qoyulan təməl üzərində bütöv bir quruculuq strategiyası formalaşıb. Qarabağ və Şərqi Zəngəzur bu gün Azərbaycanın ən genişmiqyaslı bərpa, infrastruktur və iqtisadi inkişaf layihələrinin həyata keçirildiyi ərazilərdir. Burada yollar çəkilir, tunellər salınır, körpülər tikilir, elektrik, su, qaz və rabitə xətləri yenilənir, yaşayış məhəlləri, məktəblər, xəstəxanalar və istehsal müəssisələri yaradılır. Dağıntıların yerində müasir şəhərsalma prinsiplərinə əsaslanan yeni yaşayış məkanları formalaşır.

Zəfər yolunun əhəmiyyəti isə onun tarixi rəmzi mənası ilə yanaşı, Qarabağın nəqliyyat xəritəsində açdığı yeni imkanlarla da ölçülür. Bu gün azad edilmiş ərazilərdə müxtəlif istiqamətləri birləşdirən geniş nəqliyyat şəbəkəsi formalaşdırılıb. Əhmədbəyli-Füzuli-Şuşa, Toğanalı-Kəlbəcər-İstisu, Kəlbəcər-Laçın, Horadiz-Ağbənd və digər strateji yollar bölgənin nəqliyyat əlçatanlığını artırır. Bu yollar təkcə şəhərləri və rayonları birləşdirmir, həm də iqtisadi fəallıq, turizm, ticarət və insanların doğma yurdlarına qayıdışı üçün yeni imkanlar yaradır.

Bütün bu layihələrin mərkəzində insan amili dayanır. Qarabağın dirçəlişi, insanların doğma evlərinə qayıtması təhlükəsiz və layiqli həyat şəraitinin yaradılması deməkdir. "Böyük qayıdış" proqramı məhz bu tarixi missiyanın həyata keçirilməsinə xidmət edir. Bu gün Füzuli, Zəngilan, Laçın, Ağalı, Talış, Suqovuşan, Şuşa, Xocalı, Xankəndi, Ağdam, Cəbrayıl və digər yaşayış məntəqələrində mərhələli şəkildə məskunlaşma prosesi davam edir.

2026-cı ilin sentyabrında açıqlanan məlumatlara görə, işğaldan azad edilmiş ərazilərdə 40 mindən çox keçmiş məcburi köçkün doğma yurdlarına qayıdıb, 45-dən çox yaşayış məntəqəsi bərpa olunub. Ümumilikdə isə Qarabağ və Şərqi Zəngəzurda yaşayan, işləyən və təhsil alan insanların sayı 100 minə yaxınlaşıb. Bu rəqəmlər Böyük qayıdışın ayrı-ayrı yaşayış məntəqələrinin bərpası çərçivəsindən çıxaraq geniş sosial-iqtisadi prosesə çevrildiyini göstərir.

Quruculuğun digər mühüm istiqaməti yeni iş yerlərinin açılması, bölgədə sahibkarlığın və istehsalın inkişafıdır. Ağdam Sənaye Parkı və Cəbrayıldakı Araz Vadisi İqtisadi Zonası bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Burada istehsal, emal, logistika və xidmət sahələrinin inkişafı üçün şərait yaradılır. Xankəndi və Xocalıda yeni müəssisələrin fəaliyyətə başlaması, Ağdərə rayonunda Dağ-mədən emalı kompleksinin işə düşməsi bölgənin iqtisadi həyatının canlanmasının konkret nümunələridir. Cəbrayılın kənd təsərrüfatı və logistika imkanları, Füzulinin nəqliyyat mövqeyi, Kəlbəcər və Laçının təbii sərvətləri, turizm potensialı yeni iqtisadi imkanların formalaşmasına zəmin yaradır.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2026-cı il iyunun 5-də açıqladığı məlumata əsasən, doğma yurdlarına qayıtmış iqtisadi fəal sakinlərdən 10623 nəfərin məşğulluğu təmin edilib. Onlardan 7915 nəfəri işlə təmin olunub, 1828 nəfəri müxtəlif sahələr üzrə özünüməşğulluq fəaliyyətinə cəlb edilib. Bundan başqa, ailə təsərrüfatlarının yaradılması, peşə hazırlığı və əmək yarmarkaları vasitəsilə insanların iqtisadi həyata inteqrasiyası dəstəklənir. Bu, Böyük qayıdışın mühüm şərtini - insanın öz torpağında məskunlaşmasını deyil, həm də iqtisadi baxımdan dayanıqlı həyat qurmasını təmin etmək məqsədini əks etdirir.

Qarabağın gələcəyini müəyyənləşdirən istiqamətlərdən biri də "yaşıl enerji" potensialının reallaşdırılmasıdır. Təbii su ehtiyatları, dağ çayları, günəşli günlərin çoxluğu və külək potensialı bu regionu bərpaolunan enerji istehsalı üçün əlverişli məkana çevirir. İşğaldan azad edilmiş ərazilərin "yaşıl enerji zonası"na çevrilməsi konsepsiyası çərçivəsində su-elektrik stansiyalarının bərpası və yenilərinin tikintisi, günəş və külək enerjisi layihələrinin həyata keçirilməsi davam edir. Artıq bölgədə onlarla kiçik və orta güclü su-elektrik stansiyası fəaliyyət göstərir. Bu stansiyalar həm yerli enerji təminatına töhfə verir, həm də təbii resurslardan səmərəli istifadə üçün yeni imkanlar yaradır. Xüsusilə Cəbrayıl rayonunda həyata keçirilən layihələr diqqətəlayiqdir. 2024-cü ilin noyabrında təməli qoyulan 240 meqavat gücündə "Şəfəq" Günəş-Elektrik Stansiyası layihəsi BP, "SOCAR Green" və Azərbaycan Biznesinin İnkişafı Fondunun iştirakı ilə reallaşdırılır. Layihənin illik təxminən 500 milyon kilovatsaat elektrik enerjisi istehsal etməsi nəzərdə tutulur. Bundan əlavə, Cəbrayılda "Üfüq" və "Şəms" günəş-elektrik stansiyaları layihələri də həyata keçirilir. Bu təşəbbüslər Qarabağın enerji potensialının iqtisadi dövriyyəyə cəlb edilməsinə, təbii qaza qənaətə və karbon emissiyalarının azaldılmasına xidmət edir.

Bütün bunlarla yanaşı, Qarabağın dünyaya açılması təkcə yolların və hava limanlarının tikilməsi, yaxud enerji layihələrinin reallaşdırılması demək deyil, həm də bölgənin zəngin tarixi-mədəni irsinin, turizm imkanlarının, milli mətbəxinin, sənətkarlıq ənənələrinin beynəlxalq miqyasda tanıdılmasıdır. Şuşanın mədəniyyət paytaxtı kimi inkişafı, beynəlxalq tədbirlərə evsahibliyi etməsi, "Xarıbülbül" festivalı, Vaqif Poeziya Günləri, Ağdamın və digər şəhərlərin yenidən qurulması Qarabağın mədəni həyatının bərpası deməkdir.


Təbii ki, qarşıda hələ işlər çoxdur. Minalanmış ərazilərin təmizlənməsi, infrastrukturun tam bərpası, bütün keçmiş məcburi köçkünlərin təhlükəsiz və mərhələli şəkildə doğma torpaqlarına qayıtması, yeni iqtisadi fəaliyyət sahələrinin genişləndirilməsi davamlı diqqət və böyük resurslar tələb edir. Buna görə də Qarabağda quruculuq prosesini indiyədək görülmüş işlərin nəticəsi kimi deyil, uzunmüddətli inkişaf strategiyası kimi də qiymətləndirmək lazımdır. 6 il əvvəl Füzulidə səslənən fikirlər bu gün tamam başqa bir miqyasda öz əksini tapır. O zaman Şuşaya aparan yolun təməli qoyulurdu, bu gün isə həmin yolun başlanğıcından bütün Qarabağa uzanan yeni həyat yolları çəkilib. Bir vaxtlar viran qalmış şəhərlərdə indi məktəb zəngləri çalınır, yaşayış evlərinin pəncərələrindən işıq gəlir, istehsal müəssisələrinin qapıları açılır, yeni ailələr doğma yurdlarında gələcək qurarlar. Bütün bunlar bir həqiqəti göstərir - qələbədən sonrakı ən böyük vəzifə qazanılmış tarixi nəticələri davamlı inkişafla möhkəmləndirmək, azad edilmiş torpaqlarda insanların xoşbəxt və təhlükəsiz həyatını təmin etməkdir.


16 noyabr 2020-ci ildə Füzulidə atılan ilk quruculuq addımı ilə bu gün Qarabağda davam edən böyük dəyişikliklər arasında qırılmaz bir bağlılıq var. Qarabağın dünəni ağrı və ayrılıqla, bu günü qayıdış və quruculuqla, sabahı isə iqtisadi inkişaf, müasir texnologiyalar, "yaşıl enerji" və beynəlxalq əməkdaşlıq perspektivləri ilə səciyyələnir. Tarixin bu 6 ili xalqımızın yaddaşında təkcə azad edilmiş torpaqlara qayıdış dövrü kimi deyil, həmin torpaqlarda yeni həyatın, iqtisadiyyatın və gələcəyin qurulduğu mərhələ kimi qalır.

Elşən QƏNİYEV,
"Azərbaycan"

YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib

Noyabrın 13-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib.





Səfir Lu Mey ÇKP Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysinin salamlarını və ölkəmizin ictimai-siyasi həyatında əlamətdar hadisə olan Yeni Azərbaycan Partiyasının VIII Qurultayının uğurla baş tutması münasibətilə təbriklərini çatdırıb.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov salamlara və təbrikə görə təşəkkürünü bildirib, onun da salamlarının Lyu Haysinə çatdırılmasını xahiş edib. Görüşdə müasir beynəlxalq münasibətlər sisteminin mühüm reallığı olan Azərbaycan-Çin münasibətlərinin tarixi ənənələrə, qarşılıqlı etimada və möhkəm dostluğa əsaslandığı qeyd olunub.

Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının (ÇKP) Baş katibi Si Cinpinin məqsədyönlü siyasəti nəticəsində hərtərəfli strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş dövlətlərarası əlaqələrin bütün sahələrdə yüksələn xətt üzrə inkişafının məmnunluq doğurduğu vurğulanıb. Beynəlxalq hüquq normalarına əsaslanan müstəqil siyasət həyata keçirən hər iki ölkənin birbirinin müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə qətiyyətli dəstəyi bir daha ifadə edilib. İqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar, rəqəmsal texnologiyalar, "yaşıl enerji", gənclərlə iş və digər sahələrdə iki ölkə arasında işbirliyinin dərinləşdirilməsinin önəmi vurğulanıb. Tərəflər arasında konstruktiv siyasi dialoqun Qlobal Cənubda əməkdaşlığın təşviqinə mühüm töhfələr verdiyi bildirilib.

Hər iki ölkənin liderlərinin dövlətlərarası münasibətlərin mühüm tərkib hissəsi kimi Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında həm ikitərəfli, həm də müxtəlif beynəlxalq platformalar çərçivəsində əlaqələrin inkişafını xüsusi diqqət mərkəzində saxladıqları qeyd olunaraq partiyalar arasında Əməkdaşlıq Memorandumundan irəli gələn vəzifələrin yerinə yetirilməsinin müştərək maraqların təminində xidmət etdiyi bildirilib.

2026-cı il mayın 11-15-də YAP nümayəndələrinin Çinə, sentyabrın 8-də isə ÇKP Mərkəzi Komitəsinin üzvü, Beynəlxalq əlaqələr şöbəsinin müdiri, nazir Lyu Haysinin rəhbərlik etdiyi nümayəndə heyətinin Azərbaycana səfərləri məmnunluqla xatırlanaraq qarşılıqlı fikir və təcrübə mübadiləsinin partiyalar arasında əlaqələrin mövcud vəziyyətinin dəyərləndirilməsi və gələcək əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi baxımından əhəmiyyəti qeyd olunub. Gənclərin ictimai-siyasi həyatda, eləcə də dövlət idarəçiliyində və partiya fəaliyyətində aktiv iştirakının önəminə toxunularaq bu sahədə ixtisaslaşmış təhsil müəssisələri arasında işbirliyinin önəmi vurğulanıb.

Səfir Lu Mey 2026-cı ilin oktyabr ayında Pekində keçirilmiş ÇKP Mərkəzi Komitəsinin Beşinci Plenumunun nəticələri barədə ətraflı məlumat verib. Görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

Paytaxt rayonlarında qışa hazırlıqla bağlı müşavirələr keçirilir







Bakı Şəhər İcra Hakimiyyətinin tapşırıqlarına uyğun olaraq, paytaxt rayonlarında qışa hazırlığın vəziyyəti ilə bağlı kommunal, təsərrüfat xidmətləri, idarə və təşkilatların, təhsil müəssisələrinin, özəl sektorun nümayəndələrinin iştirakı ilə müşavirələr keçirilir.

Bakı Şəhər İcra Hakimiyyətinin Mətbuat xidmətindən verilən məlumata görə, müşavirələrin əsas məqsədi rayon xidmətlərinin soyuq qışa, xüsusilə güclü qar yağmasına hazırlığı vəziyyətinin araşdırılması, bu zaman görülməsi zəruri olan işləri müzakirə etməkdir.

İlk müşavirələr paytaxtın Sabunçu, Suraxanı və Xətai rayonlarında keçirilib. Müşavirələrdə Bakı Şəhər İcra Hakimiyyətinin şöbə müdirləri, şəhərin kommunal və digər xidmətlərinin rəhbərləri də iştirak ediblər. Qeyd edilib ki, Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hər bir rayona cavabdeh şəxs təyin edilib, həmin şəxslər yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birgə rayonlarda qış mövsümünə hazırlığı, verilən tapşırıqların və görülən işlərin icra vəziyyətini yoxlayıblar.

Bildirilib ki, qış aylarında yağmurlu və şaxtalı hava şəraiti ilə əlaqədar rayon icra hakimiyyətlərində qışa hazırlıqla bağlı yaradılan qərargahlar, kommunal və təsərrüfat xidmətləri və aidiyyəti təşkilatların rəhbərləri həmin günlərdə üzərilərinə düşən vəzifələrin tam şəkildə yerinə yetirilməsi üçün hazır olmalıdırlar. Hər bir qurama qarın təmizlənməsi üçün lazımi qədər alətin, inventarın (bel, kürək, ling və s.) toplanması, duz ehtiyatı yaradılması, xüsusi texnikaların vəziyyətinin yoxlanılması ilə bağlı tapşırıqlar verilib. Rayondakı küçə və məhəllələrin qardan təmizlənməsinə cavabdeh şəxslərin siyahıları hazırlanıb, bu işlərə kommunal qurumların texnikası ilə yanaşı idarə, təşkilat, bələdiyyə və özəl qurumların da mövcud texnikalarının cəlb edilməsi qərara alınıb.

Həmçinin rayonlardakı idarə, təşkilat və özəl qurumların, bələdiyyələrin, o cümlədən ictimai iaşə müəssisələrinin rəhbərlərinə, ictimaiyyət nümayəndələrinə qarlı günlərdə dünyanın əksər ölkələrində də qəbul edilən qaydalara uyğun özlərinə aid ərazilərin təmizlənməsində yaxından iştirak etməyə çağırış edilib.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

Görülən tədbirlər "Azəri-Çıraq-Günəşli"nin ömrünü uzadır

SOCAR-ın və BP-nin birgə keçirdiyi sessiya "Azəri-Çıraq-Günəşli" (AÇG) yataqlar blokundan hasilat məsələlərinə həsr olunmuşdu. Tədbir belə adlanırdı: "AÇG-dən maksimum neftverməyə dəstək - yeni yanaşmalar və texnologiya".

Tədbirdə SOCAR-ın vitse-prezidenti Babək Hüseynov və BP-nin geologiya və kəşfiyyat üzrə vitse-prezidenti Dən Sparks çıxış etdilər. Bildirildi ki, nəhəng "Azəri-Çıraq-Günəşli"nin yetkin işlənmə mərhələsinə keçdiyi bir vaxtda hasilatın uzunmüddətli davamlılığının təmin edilməsində innovativ yanaşmaların və yeni texnologiyaların rolu daha da artır.

Əvvəla qeyd edək ki, ölkədə neft hasilatının azalmasının səbəblərini araşdırmaq və vəziyyəti aradan qaldırmaq üçün tədbirlər görmək Prezident İlham Əliyevin tapşırığı və tələbidir. Dövlətimizin başçısı bunu çıxışlarında və müsahibələrində bildirib.

SOCAR-la BP-nin keçirdiyi həmin birgə tədbirdə bildirildi ki, hazırda AÇG-də əsas məqsəd hasilatın təbii azalma tempini idarə etmək və blokdan maksimum neftverməyə nail olmaqdır. AÇG-nin işlənməsi layihəsinin operatoru olaraq BP bu istiqamətdə SOCAR-la sıx əməkdaşlıq edir. Birgə səylər nəticəsində AÇG-də hasilatın illik azalma tempini 2023-cü ildəki təxminən 12 faizdən hazırda təxminən 3 faizə endirməyə nail olunub. Bu da sənaye üzrə orta göstəricidən əhəmiyyətli dərəcədə aşağıdır. Bu nəticə yetkin mərhələdə olan AÇG-dən hasilatın uzunmüddətli davamlılığının təmin edilməsi məqsədilə həyata keçirilən tədbirlərin effektivliyini göstərir.



Tədbirlər dörd əsas istiqamət üzrə həyata keçirilir: Bunlar əməliyyat etibarlılığı, qazma qurğularının məhsuldarlığının artırılması, layların "canlandırılması", texnologiya və innovasiyanın strateji tətbiqidir.

Xatırladaq ki, AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) ilkin olaraq 1994-cü il sentyabrın 20-də imzalanıb. O vaxtdan bəri AÇG yataqlarının işlənməsinə təxminən 47 milyard dollar investisiya qoyulub.

İlk neft "Çıraq" yatağından 1997-ci il noyabrın 7-də əldə edilib. 2017-ci il sentyabrın 14-də AÇG üzrə dəyişdirilmiş və yenidən işlənmiş HPBS imzalanıb və bununla ilkin sazişin müddəti 2049-cu ilə qədər uzadılıb.

Bu günədək AÇG-dən təxminən 4,7 milyard barel neft hasil edilib. Yeni texnologiyalara iri sərmayələr və laylardan neftvermənin maksimuma çatdırılması istiqamətində digər səylər nəticəsində bu dünya səviyyəli yataqlar blokundan hasilatın gələcək onilliklər ərzində də davam etməsi gözlənilir.

Flora SADIQLI,
"Azərbaycan"

2027-ci ilin dövlət büdcəsinin layihəsi ilə bağlı müzakirələr davam edir

Noyabrın 13-də Milli Məclisin Aqrar siyasət, Ailə, qadın və uşaq məsələləri, Elm və təhsil komitələrinin birgə iclasında "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda təqdim edilib.



Milli Məclisin Sədr müavini Musa Qasımlı iclası açaraq, Prezident İlham Əliyev tərəfindən təqdim edilmiş 2027-ci ilin dövlət büdcəsi layihəsinin mükəmməl hazırlandığını vurğulayıb. Bildirilib ki, layihədə milli təhlükəsizliyin, müdafiənin və sabitliyin etibarlı qorunması, sosial-iqtisadi inkişafın davamlılığının təmin edilməsi ilə bağlı məsələlər ehtiva edilib. Eyni zamanda sənəddə kənd təsərrüfatının, qeyri-neft sektorunun inkişafı, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, ailə, qadın və uşaqların müdafiəsi, təhsilin keyfiyyətinin yüksəldilməsi, elmi tədqiqatların, innovasiyaların və rəqəmsal texnologiyaların dəstəklənməsi xüsusi yer tutur.

Bildirilib ki, layihədə təhsil xərclərinə ayrılacaq vəsait ümumi təhsilin keyfiyyətinin yüksəldilməsinə, məktəbəqədər təhsilin əhatə dairəsinin genişləndirilməsinə, ali təhsilin inkişafına və elmi tədqiqatlarla inteqrasiyasına, peşə təhsilinin əmək bazarının tələblərinə uyğunlaşdırılmasına, rəqəmsal təhsilə, müasir texnologiyaların tətbiqinə və təhsil infrastrukturunun inkişaf etdirilməsinə yönəldiləcək. Həmçinin ölkəmizin elmi potensialının gücləndirilməsi üçün bu sahəyə ayrılması proqnozlaşdırılan vəsaitin elmi tədqiqatların və innovasiyaların dəstəklənməsinə, rəqəmsal inkişafın sürətləndirilməsinə, süni intellektin və innovativ texnologiyaların tətbiqinə ayrıldığı söylənilib.

Diqqətə çatdırılıb ki, sənəddə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyətinə ayrılacaq vəsaitin isə məişət zorakılığına məruz qalmış şəxslərin dəstəklənməsi, insan alverinin qurbanlarına yardım göstərilməsi, erkən nikah hallarının qarşısının alınması, sağlamlıq imkanları məhdud olan uşaqlarla sosial və psixoloji işin təşkili üçün xərclənməsi planlaşdırılır.

Vitse-spiker çıxışında vurğulayıb ki, 2027-ci ilin dövlət büdcəsi layihəsinin qəbulu ölkəmizin iqtisadi, sosial və müdafiə qüdrətini daha da artıracaq, bütün sahələrdə davamlı inkişafı təmin edəcək, qarşıya qoyulan strateji hədəflərin uğurla icrasına zəmin yaradacaq.

Sonra iclasda maliyyə nazirinin müavini Himalay Məmişov 2027-ci ilin dövlət büdcəsi layihəsi ilə bağlı məlumatı təqdim edib.

Nazir müavini növbəti il üçün dövlət və icmal büdcənin gəlirləri barədə məlumatında nəzərə çatdırıb ki, icmal büdcənin gəlirləri 47,6 milyard manat, icmal büdcənin gəlirlərinin ÜDM-də payı 33,8 faiz, icmal büdcədə qeyri-neft gəlirlərinin payı 64,5 faiz təşkil edəcək. Bildirilib ki, dövlət büdcəsinin gəlirləri 39,3 milyard manata, dövlət büdcəsi gəlirlərinin ÜDM-də payı isə 27,8 faizə bərabər olacaq.

Həmçinin bildirilib ki, icmal büdcənin gəlirləri 47,6 milyard manat olacaq, gəlirlərin 30,7 milyard manatı və ya 64,5 faizi qeyri-neft sektoru üzrə, 16,9 milyard manatı və ya 35,5 faizi isə neft-qaz sektoru üzrə gəlirlərin payına düşəcək. İcmal büdcənin xərcləri növbəti il üçün 50,4 milyard manat nəzərdə tutulub.

Sonra tədbirdə iqtisadiyyat nazirinin müavini Azər Bayramov çıxış edib. Nazir müavini aqrar sektora dövlət tərəfindən davamlı dəstəyin göstərildiyini deyərək, bu baxımdan vergi, o cümlədən əlavə dəyər vergisi üzrə güzəştlərin, subsidiyaların, aqrar sığorta və güzəştli kreditlərin vacibliyindən danışıb. Qeyd edilib ki, bu ilin may ayında təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" intensiv və rəqabətqabiliyyətli istehsal modelinə keçidi, məhsuldarlığın, emalın və dəyər zəncirinin inkişafını nəzərdə tutur.

Hesablama Palatasının sədr müavini Nəsir Sadıqov 2027-ci ilin dövlət büdcəsi layihəsinə dair palatanın rəyini təqdim edib. O bildirib ki, dövlət maliyyəsinin idarəetməsinin təkmilləşdirilməsi, beynəlxalq təcrübəyə uyğunluğun təmin olunması, dövlət büdcəsinin gəlir və xərclərinin düzgün uçotunun aparılması istiqamətlərində Hesablama Palatasının əvvəlki rəylərində qeyd edilmiş əksər məsələlər təqdim olunmuş büdcə zərfində tam və ya qismən nəzərə alınıb.

Palatanın sədr müavini 2027-ci ilin dövlət büdcəsinin layihəsi üzrə təqdim olunan sənədlərdə bəzi yeniliklərin tətbiq edildiyini, son illər ərzində məlumatlılığın yüksəldilməsi istiqamətində müəyyən addımların atıldığını deyib. O qeyd edib ki, növbəti ildə iqtisadi artım və inflyasiya gözləntiləri, vergi inzibatçılığının və nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, habelə qanunvericiliyə təklif olunan dəyişikliklər hesabına əlavə gəlir potensialının formalaşması daxilolmaların proqnozunun cari ilin göstəricisini əhəmiyyətli dərəcədə üstələməsi ilə gözlənilir. O Hesablama Palatasının rəyində öz əksini tapmış tövsiyələrlə bağlı təklifləri də nəzərə çatdırıb.

İclasda elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev, Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, Elm və təhsil komitəsinin sədri Anar İsgəndərov çıxış ediblər.

Çıxışlar zamanı ölkəmizdə həyata keçirilən təhsil siyasətinə dair slaydlarla müşayiət olunan təqdimat nümayiş etdirilib. Təhsil sahəsinə ayrılan vəsaitlərin artırılmasının, müəllimlərin sertifikatlaşdırılması və əməkhaqlarının stimullaşdırılması, ali təhsilin əlçatanlığının genişləndirilməsi, eləcə də məktəbəqədər təhsilin inkişafının əhəmiyyəti qeyd olunub. Bununla yanaşı, kənd rayonlarında müəllim çatışmazlığının aradan qaldırılması, gənc pedaqoqların bölgələrə cəlb edilməsi, təhsil tələbə kreditlərinin daha əlçatan olması və məktəb infrastrukturunun yaxşılaşdırılması ilə bağlı təkliflər səsləndirilib.

Müzakirələrdə Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədr müavini Jalə Əliyeva, Aqrar siyasət komitəsinin sədr müavini Razi Nurullayev, deputatlar Bəxtiyar Əliyev, Elnarə Akimova, Vüqar İskəndərov, Ceyhun Məmmədov, Vasif Qafarov, Mehriban Vəliyeva, Müşfiq Məmmədli, Elçin Mirzəbəyli, Şahin Seyidzadə, Əziz Ələkbərli çıxış edərək məsələ ilə bağlı fikirlərini bildiriblər, bəzi qeydlərini və suallarını səsləndiriblər.

Maliyyə nazirinin müavini Himalay Məmişov, elm və təhsil nazirinin müavini Kənan Kərimzadə, kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova çıxışlarda qaldırılan məsələlərə aydınlıq gətiriblər.

Sonda "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə edilib.

"Azərbaycan"

Avropada Azərbaycana yüksək diqqət var

Prezident İlham Əliyevin "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısında qarşı tərəflərin istəyi ilə görüşlər keçirməsi bunun təzahürüdür

Noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində 50-yə yaxın dövlət və hökumət başçısının toplaşdığı "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısında diqqətçəkən məqamlardan biri tədbir çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyevin keçirdiyi ikitərəfli görüşlərin qarşı tərəflərin müraciəti əsasında baş tutması oldu. Böyük Britaniyadan Yunanıstana, Ukraynadan Rumıniyaya, Avropa İttifaqı rəhbərliyindən Moldovaya qədər fərqli coğrafiyaların liderləri məhz Bakı ilə dialoq qurmaq təşəbbüsü ilə çıxış etdilər. Liderləri eyni masa arxasında birləşdirən əsas səbəb isə Azərbaycanın artan beynəlxalq nüfuzu, müstəqil siyasi çəkisi və qoca qitəyə təklif etdiyi real iqtisadi enerji dividendləri idi.

Avropanın enerji təhlükəsizliyinin əsas dayaqlarından biri

Reallıqdır ki, diplomatiyada bu cür təşəbbüslər təsadüfi olmur. Bu, ilk növbədə sözü imzası qədər kəsərli olan Azərbaycan liderinə göstərilən ehtiramın, ölkəmizin bu gün Avropa üçün həyati əhəmiyyət daşıyan geosiyasi və iqtisadi çəkisinin göstəricisidir.

"Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində keçirilmiş "Rəqabətqabiliyyətli Avropanın yaradılması - innovasiya, bağlantılar və əlçatan enerji" mövzusunda "dəyirmi masa"da Prezident İlham Əliyevin səsləndirdiyi rəqəmlər də bunu təsdiqləyir.

Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində ölkəmizin roluna toxunan dövlətimizin başçısı bu xüsusda Azərbaycan ilə Avropa İttifaqı arasında enerji sahəsində strateji tərəfdaşlığa dair 2022-ci ildə imzalanmış Anlaşma Memorandumunu qeyd edib. Bildirib ki, o vaxtdan bəri ölkəmiz Avropa İttifaqına qaz təchizatını səkkiz milyard kubmetrdən on üç milyard kubmetrə qədər artırıb.

Dövlətimizin başçısı deyib ki, bu gün yeddi ölkənin ərazisindən keçən və Bolqarıstandakı interkonnektorlar vasitəsilə Avropa İttifaqının on ölkəsini təchiz edən, Bakıdan İtaliyaya qədər uzanan boru kəməri tamamilə doludur. Prezident İlham Əliyev onu genişləndirməyin vacibliyinə toxunub, Yunanıstana və İtaliyaya gedən kəmərin ötürmə gücünün 10 milyard kubmetrdən 11,2 milyard kubmetrə qədər artırdığımızı bildirib.

Məhz buna görə Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta, Yunanıstanın Baş naziri Kiriakos Miçotakis, Bolqarıstanın Baş naziri Rumen Radev, Rumıniya Prezidenti Nikuşor Dan və Moldova Prezidenti Maya Sandu görüşlərdə Azərbaycanı Avropanın enerji təhlükəsizliyinin əsas dayaqlarından biri kimi qiymətləndiriblər.

Söhbət təkcə bugünkü qaz təchizatından getmir - Azərbaycan, Gürcüstan, Türkiyə və Bolqarıstan arasında "yaşıl enerji"nin Avropaya ixracı razılaşması ölkəmizi qitənin gələcək enerji xəritəsinin də mərkəzinə gətirir.

Avropa İttifaqı Şurasının prezidenti Antonio Koşta ilə görüşdə Avropa İttifaqı tərəfindən Naxçıvan dəmir yolu layihəsi üzrə qiymətləndirmənin tezliklə yekunlaşdırılacağı bildirilib.

Orta dəhlizin əhəmiyyəti qeyd edilib, nəqliyyat və bağlantıların inkişafı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

Qlobal nüfuzun təzahürü

Prezident İlham Əliyev ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhem arasında keçirilən görüşdə "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"nin mübadilə olunması münasibətləri yeni mərhələyə daşıdı.

Azərbaycanda Avropanın ən böyük investoru olan Britaniya ilə 30 illik neft-qaz əməkdaşlığı artıq bərpaolunan enerji, yüksək texnologiyalar və süni intellekt sahələrinə keçid edir.

Prezident İlham Əliyevin Dublin görüşlərində həm də Cənubi Qafqazda sülh və yeni nəqliyyat dəhlizləri məsələsi gündəlikdə oldu. Ermənistanın baş naziri Nikol Paşinyanın müraciəti ilə baş tutan görüşdə 2025-ci il avqustun 8-də keçirilmiş Vaşinqton Sülh Sammitinin nəticələrinə və həmin tədbirdə imzalanmış Vaşinqton Birgə Bəyannaməsinə əsaslanaraq, Azərbaycan ilə Ermənistan arasında sülh gündəliyinin irəlilədilməsi ətrafında fikir mübadiləsi aparıldı.

Liderlər bu kontekstdə Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) inkişafı istiqamətində əldə olunmuş irəliləyişləri, o cümlədən onun dəmir yolu və avtomobil yolu komponentlərinin planlaşdırılması və layihələndirilməsini, həmçinin TRIPP marşrutu boyunca tranzit əlaqələrinin perspektivlərini müzakirə ediblər.

Azərbaycanın beynəlxalq nüfuzu yalnız enerji və nəqliyyat sahəsindəki strateji rolu ilə ölçülmür. Prezident İlham Əliyevin Dublində Ukrayna Prezidenti Volodimir Zelenski ilə keçirilən görüşündə ölkəmizin Ukraynaya göstərdiyi humanitar yardımlara, xüsusilə elektrik avadanlıqlarının təchizatına görə səmimi təşəkkür ifadə olundu. Diqqətçəkən məqam isə odur ki, rəsmi Kiyev Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda apardığı genişmiqyaslı quruculuq işlərini yaxından izləyir və postmünaqişə dövrünün bərpa təcrübəsini öz ölkəsi üçün mühüm nümunə hesab edir.

Noyabrın 12-də Litva Prezidenti Gitanas Nauseda ilə keçirilən görüşdə də regional sabitlik və Bakı-Brüssel əlaqələrinin genişləndirilməsi əsas müzakirə mövzusu oldu.

Dublində keçirilən bu sıx diplomatik görüşlərin hamısının qarşı tərəflərin təşəbbüsü ilə baş tutması, əslində, bir gerçəyin təsdiqidir. Bu gün Avropanın enerji təhlükəsizliyi, yeni nəqliyyat xətləri və regional sabitlik Bakının iştirakı olmadan təsəvvür edilmir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti və etibarlı tərəfdaş imici Azərbaycanı qoca qitənin, sadəcə, enerji tədarükçüsünə deyil, həm də həlledici siyasi tərəfdaşına çevirib.

Cənubi Qafqazda yaradılan yeni reallıqlar, sülh gündəliyinin irəlilədilməsi və qitələri birləşdirən strateji layihələr ölkəmizin beynəlxalq nüfuzunu keyfiyyətcə yeni mərhələyə yüksəldib. Sözü imzası qədər kəsərli olan Azərbaycan liderinə göstərilən bu ali ehtiram bir daha göstərir ki, Bakı artıq qlobal proseslərin, sadəcə, iştirakçısı deyil, həm də bu proseslərə istiqamət verən əsas güc mərkəzlərindən biridir.

Yasəmən MUSAYEVA,
"Azərbaycan"

Ev təsərrüfatlarının uçotu rəqəmsallaşdırılır

Yenilik ölkənin aqrar sektoruna nə vəd edir?

Azərbaycanda ev təsərrüfatlarının uçot qaydalarının yenilənməsi fermerlər və fərdi təsərrüfat sahibləri arasında bəzi suallar yaradıb. Yeni qaydalar hansı dəyişiklikləri gətirəcək? Kiçik ailə təsərrüfatlarında istehsal olunan məhsullar da uçota alınacaqmı? Bu proses fermerlər üçün əlavə öhdəliklər yaradacaq, yoxsa kənd təsərrüfatında istehsalın real həcmini müəyyənləşdirməyə və sahənin daha düzgün planlaşdırılmasına kömək edəcək?

Əslində, ev təsərrüfatlarının uçotu Azərbaycanda uzun illərdir aparılan ənənəvi statistik tədbirlərdəndir. Kənddə ötən əsrin 40-cı illərindən, şəhər və qəsəbələrdə isə 2012-ci ildən tətbiq olunan bu proses ailələrin faktiki yaşayış və təsərrüfat vəziyyətinin öyrənilməsini nəzərdə tutur. Dövlət Statistka Komitəsi bildirir ki, uçotun məqsədi ailələrin real vəziyyətini öyrənməkdir. Toplanan məlumatlar əhalinin yaşayış şəraiti, məşğulluğu və təsərrüfat fəaliyyəti barədə dolğun məlumat əldə etməyə imkan verir. Yeni mərhələdə isə əsas dəyişiklik uçotun rəqəmsal formata keçirilməsidir. Başqa sözlə, gələn ildən ev təsərrüfatları haqqında məlumatların toplanması tam elektron qaydada həyata keçiriləcək. Məlumatların vahid informasiya sistemində birləşdirilməsi və Elektron Hökumət İnformasiya Sisteminə (EHİS) inteqrasiyası nəzərdə tutulur. Bununla da əvvəllər vətəndaşlardan sorğu yolu ilə əldə edilən məlumatların bir hissəsi dövlət informasiya sistemlərindən götürüləcək, eyni məlumatların təkrar təqdim edilməsi zərurəti azalacaq. Sistemin digər yeniliyi vətəndaşların öz ev təsərrüfatlarına dair məlumatlarla "mygov" platforması vasitəsilə tanış ola bilməsidir. Sistemin ən əsas üstünlüyü ondadır ki, məlumatların işlənilməsi və qorunması qanunvericiliyin tələblərinə uyğun aparılacaq, şəxsi informasiyaların məxfiliyi təmin ediləcək.

İqtisadçı Razi Abbasbəylinin fikrincə, ev təsərrüfatları ilə bağlı dəqiq statistik məlumatların toplanması aqrar sektorda mövcud vəziyyətin qiymətləndirilməsi və inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi üçün vacibdir: "İlk növbədə nəzərə almaq lazımdır ki, hökumətin aqrar sektorun inkişafı ilə bağlı dəqiq strateji proqramları olmalıdır. Belə proqramların hazırlanması üçün isə faktlara əsaslanan statistik məlumatlar tələb olunur. Hökumət həmin məlumatları təhlil etməklə hansı regionlarda ev təsərrüfatlarının inkişaf etdiyini, hansı ərazilərdə isə gerilədiyini müəyyənləşdirmək mümkün olacaq. Bu məlumatlar dövlət dəstəyinin istiqamətləndirilməsi, istehsal imkanlarının qiymətləndirilməsi və aqrar sahədə mövcud problemlərin müəyyən edilməsi baxımından əhəmiyyətlidir.

Bəlkə kiməsə elə gələ bilər ki, uçotun məqsədi təsərrüfatları əlavə öhdəliklərlə yükləməkdir. Təbii ki, elə deyil. Əsas məsələ onların fəaliyyətini və istehsal imkanlarını düzgün qiymətləndirməkdir. Toplanan məlumatlar məhz bu məqsədə xidmət edəcək. Bu isə həm kiçik fermerlərin ehtiyaclarını müəyyənləşdirməyə, həm də kənd təsərrüfatının ümumi inkişaf istiqamətlərini planlaşdırmağa imkan verəcək. Məsələn, süd, yumurta, ət və digər məhsulların istehsalı barədə dəqiq məlumatlar əldə etmək mümkün olacaq ki, bu da ölkədə ərzaq istehsalının ümumi mənzərəsinin müəyyənləşdirilməsi deməkdir.

Unutmaq olmaz ki, uçotun səmərəli təşkili üçün məlumatların toplanması prosesi fermerlər üçün sadə və anlaşıqlı olmalıdır. Xüsusən kiçik ailə təsərrüfatlarının imkanları nəzərə alınmalı, onlardan tələb olunan məlumatların həcmi və təqdimetmə qaydası əlavə çətinlik yaratmamalıdır. Rəqəmsal sistemin tətbiqi də məhz bu baxımdan əlçatan və rahat mexanizmə çevrilməlidir. Buraya Razi Abbasbəylinin iqtisadçı mövqeyini də əlavə etsək, mənzərə aydın olar: "Əsas məqsəd iqtisadi təhlillər üçün etibarlı statistik bazanın yaradılmasıdır. 2027-ci ildə toplanacaq məlumatlar 2028-ci ildə yenidən aparılacaq uçotla müqayisə edilə bilər. Bu zaman təsərrüfatlarda heyvanların, quşların və digər istehsal vasitələrinin sayında artımın, yoxsa azalmanın baş verdiyini dəqiq görmək mümkün olacaq. Bu həm aqrar sektorun inkişafı, həm də ölkənin ümumi iqtisadi vəziyyətinin daha dolğun təhlili üçün vacibdir. Hesab edirəm ki, ev təsərrüfatlarının uçotunun aparılmasını sosial şəbəkələrdə narahatlıq doğuran məsələ kimi təqdim etmək doğru deyil. Bu, inkişaf etmiş Avropa ölkələrində də tətbiq olunan praktikadır".

Bütün hallarda kənd təsərrüfatında dəqiq uçot sisteminin formalaşdırılması istehsalın real vəziyyətini görmək və mövcud imkanları düzgün qiymətləndirmək sarıdan vacib addımdır. Ancaq bu mexanizmin səmərəsi toplanan məlumatların aqrar siyasətdə, fermerlərə dəstək proqramlarında və ərzaq təhlükəsizliyinin təmin olunmasında nə dərəcədə istifadə ediləcəyi ilə ölçüləcək. O üzdən əsas məsələ uçotun ev təsərrüfatları üçün əlavə bürokratik yükə deyil, onların fəaliyyətinin inkişafına xidmət edən vasitəyə çevrilməsidir ki, buna da şübhə etmirik.

Züleyxa ƏLİYEVA,
"Azərbaycan"

Milli Məclisin Mədəniyyət komitəsində Azərbaycanın mədəni diplomatiyası haqqında ictimai müzakirə keçirilib

Noyabrın 13-də Milli Məclisin Mədəniyyət komitəsi "Prezident İlham Əliyevin VII Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumundakı çıxışından irəli gələn prioritetlər: Mədəniyyətlərarası dialoq və Azərbaycanın mədəni diplomatiyası" mövzusunda ictimai müzakirə keçirib.

Bülbül Fondunda təşkil olunan tədbirdə Milli Məclisin deputatları, dövlət qurumlarının, ali təhsil müəssisələrinin, yaradıcılıq təşkilatlarının nümayəndələri, tanınmış elm və incəsənət xadimləri iştirak ediblər.

İctimai müzakirəni açan Milli Məclisin Mədəniyyət komitəsinin sədri Polad Bülbüloğlu Azərbaycanın mədəniyyətlərarası diplomatiyasının regional və beynəlxalq əməkdaşlığın inkişafına, dünyada sülh və həmrəyliyin möhkəmləndirilməsinə verdiyi töhfələrdən danışıb. O, Bakı Prosesinin və bu çərçivədə keçirilən Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun Azərbaycanın sivilizasiyalar arasında qarşılıqlı anlaşma və etimadın möhkəmləndirilməsində fəal rolunun bariz göstəricisi olduğunu vurğulayıb. Komitə sədri Prezident İlham Əliyevin VII Forumdakı çıxışının mədəniyyətlər arasında qarşılıqlı anlaşmanın dərinləşdirilməsi, dialoq və etimad mühitinin gücləndirilməsi, Azərbaycanın beynəlxalq təşəbbüslərinin genişləndirilməsi baxımından mühüm əhəmiyyət daşıdığını bildirib.

Milli Məclis Sədrinin müavini Rafael Hüseynov mədəniyyətlərarası dialoqun qlobal çağırışlar fonunda xüsusi aktuallıq kəsb etdiyini söyləyib. O, mədəni əlaqələrin iqtisadi və siyasi münasibətlərin inkişafına, xalqlar arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə və yaxınlaşmanın təmin olunmasına təsirindən danışaraq, bu istiqamətdə sistemli və ardıcıl fəaliyyətin vacibliyini diqqətə çatdırıb. Rafael Hüseynov mədəniyyətlərarası əlaqələrin gələcəyini formalaşdıracaq peşəkar kadrların hazırlanmasının, beynəlxalq təcrübənin öyrənilməsinin əhəmiyyətini vurğulayıb. O, xüsusilə Bakı Prosesinin qlobal təhlükəsizliyin qorunmasına, xalqlar və dövlətlər arasında sülh şəraitində birgəyaşayışın təşviqinə mühüm töhfə verdiyini qeyd edib.

Mədəniyyət nazirinin müavini Fərid Cəfərov Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun ölkəmizi qlobal mədəniyyətlərarası dialoqun, beynəlxalq əməkdaşlığın və qarşılıqlı anlaşmanın təşviqi üzrə mühüm platformaya çevirdiyini bildirib. O, Prezident İlham Əliyevin forumdakı çıxışının Mədəniyyət Nazirliyi və aidiyyəti qurumlar üçün gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirən strateji sənəd xarakteri daşıdığını vurğulayıb. Nazir müavini Azərbaycanın postmünaqişə dövründə həyata keçirdiyi bərpa və quruculuq işlərinin, xüsusilə maddi və qeyri-maddi mədəni irsin dirçəldilməsi sahəsindəki fəaliyyətinin beynəlxalq təcrübə baxımından əhəmiyyətini qeyd edib.

Tədbirdə Azərbaycan Yazıçılar Birliyinin sədri Anar Rzayev, Milli Məclisin komitə sədri Səməd Seyidov, Mədəniyyət komitəsi sədrinin müavini Günay Əfəndiyeva, deputatlar Sahib Alıyev və Əlibala Məhərrəmzadə, Bakı Musiqi Akademiyasının rektoru Fərhad Bədəlbəyli, Azərbaycan Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadə, Rəssamlar İttifaqının sədri Fərhad Xəlilov, incəsənət xadimləri İlham Rəhimli və İsrafil İsrafilov, AMEA-nın vitse-prezidenti Gövhər Baxşəliyeva çıxış ediblər. Çıxışlarda Azərbaycanın tarixən Şərqlə Qərbin, müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu məkan olduğu, xalqımızın əsrlər boyu qoruyub saxladığı tolerantlıq və birgəyaşayış ənənələrinin bu gün dövlət siyasətində də əksini tapdığı vurğulanıb.

Bildirilib ki, Prezident İlham Əliyevin forumdakı çıxışı Azərbaycanın mədəniyyətlərarası dialoqa yanaşmasını və bu sahədəki prioritetlərini aydın ifadə edir. Ölkəmiz yalnız beynəlxalq tədbirlərə evsahibliyi etməklə kifayətlənmir, həm də müxtəlif baxışların və mövqelərin qarşılıqlı hörmət və anlaşma şəraitində müzakirəsinə imkan yaradan platformaların formalaşmasına töhfə verir.

Mədəni diplomatiyanın imkanlarından danışan çıxışçılar milli mədəni irsin, incəsənətimizin, ədəbiyyatımızın və musiqimizin beynəlxalq miqyasda tanıdılmasının əhəmiyyətini vurğulayıblar, bu sahədə fəaliyyətin əlaqələndirilməsinin, beynəlxalq layihə və təşəbbüslərin genişləndirilməsinin vacibliyini qeyd ediblər.

İctimai müzakirə çərçivəsində Azərbaycanın mədəni diplomatiyasının mövcud imkanları, qarşıda duran vəzifələr və gələcək fəaliyyət perspektivləri ətrafında fikir mübadiləsi aparılıb.

"Azərbaycan"

Yapon təhsil modeli

Yaponiya təhsil modeli milli kimliyin qorunması məsələsinə daha fərqli yanaşan bir sistemdir. Burada məktəb insanın cəmiyyətə münasibətini formalaşdıran, davranış mədəniyyətini öyrədən və kollektiv düşüncə hissini inkişaf etdirən sosial mühitdir. Yaponiyada təhsil fərdi uğurdan daha çox ictimai məsuliyyət anlayışı ilə əlaqələndirilir. Əsas məqsədlərdən biri şagirdin cəmiyyət daxilində uyğun davranmağı bacaran fərd kimi yetişdirilməsidir.

Yaponiyanın müasir təhsil sistemi XIX əsrin ikinci yarısında baş verən modernləşmə prosesləri ilə sıx bağlıdır. Meiji Restorasiyası dövründə ölkə Qərb təcrübəsini öyrənməyə başlasa da, milli ənənələrin qorunması əsas prinsip kimi saxlanıldı. Dövlət texnoloji inkişafın yalnız iqtisadi dəyişikliklə mümkün olmadığını, bunun ortaq düşüncə sistemi və sosial birliklə bağlı olduğunu dərk edərək təhsili məhz bu əlaqələrin tam mərkəzində saxladı.

İkinci Dünya müharibəsindən sonra Yaponiyada təhsil sistemində ciddi dəyişikliklər edildi. Müharibədən sonra yeni kurikulum fərdin azad inkişafı, vətəndaş məsuliyyəti və demokratik düşüncə prinsiplərinə əsaslandı. Bununla yanaşı, milli mədəniyyətin qorunması istiqaməti də saxlanıldı. "Dəyişmək, lakin özünü itirməmək" yapon modelinin əsas meyarına çevrildi.

Yaponiyada müəllimə münasibət də fərqlidir. Müəllim davranış nümunəsi və ictimai nüfuz sahibi kimi qəbul edilir. Bu səbəbdən məktəbdə münasibətlər hörmət və etibar üzərində qurulur.

Müasir dövrdə Yaponiya yüksək texnologiya və qlobal inteqrasiya ilə tanınsa da, təhsil sistemi milli kimlik məsələsini arxa plana keçirmir. Əksinə, yeni biliklər və qlobal bacarıqlar milli dəyərlərlə paralel şəkildə təqdim olunur. Bu model göstərir ki, modernləşmə milli kimliyin zəifləməsi demək deyil, uyğun təhsil siyasəti olduqda ənənə ilə yenilik eyni sistem daxilində yaşaya bilir.

Təhsilin yapon modeli göstərir ki, milli kimlik gündəlik sosial təcrübə, davranış etikası və kollektiv məsuliyyət hissi ilə sinxronluq təşkil edir və bu modelin əsas gücü ondadır ki, qloballaşmanı milli kimlik üçün təhlükə qəbul etmir. Əksinə, yeni bilik və bacarıqları milli dəyərlərlə uyğunlaşdıraraq ənənə ilə modernliyi eyni sistem daxilində birləşdirir. Bu yanaşma təhsilin gələcəyə hazırlıq vasitəsi olmaqla cəmiyyətin özünü qoruma və yenidən qurma mexanizmi kimi təsdiq edir.

Sovet təhsil sistemi

XX əsrdə sovet təhsil sistemi milli kimliklərin formalaşmasına təsir göstərən ən geniş və mərkəzləşdirilmiş modellərdən biri hesab olunur. Bu sistemdə təhsil dövlət ideologiyasının yayılması, sosial davranış normalarının formalaşdırılması və vahid kollektiv mənsubiyyət anlayışının yaradılması üçün istifadə olunan əsas vasitələrdən biri kimi fəaliyyət göstərirdi.

Bu strukturun nəzəri izahını italyan filosofu və siyasi nəzəriyyəçi Antonio Gramsci belə verir: "Dominant ideologiya yalnız zor vasitəsilə deyil, həm də mədəni hegemonluq vasitəsilə cəmiyyətin şüuruna yerləşdirilir". O hesab edirdi ki, təhsil sistemi dominant ideologiyanın sosial norma kimi sabitləşməsini təmin edən əsas vasitədir.

Sovet təhsil modelinin ideoloji konsolidasiyası həm də milli intellektual mühitlərin nəzarət altına alınması ilə də müşayiət olunurdu. Bu kontekstdə 1926-cı ildə Bakıda keçirilən I Türkoloji Qurultay mühüm intellektual hadisə kimi çıxış edir. Qurultay türk xalqları arasında dil, əlifba və mədəni yaxınlaşma ideyalarını elmi müstəvidə formalaşdıran platforma idi. Sonrakı mərhələdə bu təşəbbüslər mərkəzləşdirilmiş ideoloji sistem baxımından alternativ inteqrasiya modeli kimi qiymətləndirildi və tədricən məhdudlaşdırıldı.

1930-cu illərdən etibarən Sovet İttifaqında genişmiqyaslı siyasi repressiya dalğası formalaşdı. Bu prosesdə təhsil və elmi mühitdə fəaliyyət göstərən zi-

(əvvəli qəzetin 13 noyabr tarixli nömrəsində)

yalı təbəqə sistemli şəkildə nəzarət altına alındı. Lavrentiy Beriyanın rəhbərliyində formalaşan təhlükəsizlik aparatı repressiya mexanizmlərinin əsas icraedici strukturlarından biri idi. Bu sistem siyasi nəzarət funksiyası olmaqla yanaşı, intellektual sahənin ideoloji filtrasiya mexanizmi kimi də çıxış edirdi.

Azərbaycan mühitində bu proses bir sıra görkəmli ziyalıların taleyində öz əksini tapdı. Mikayıl Müşfiq 1937-ci il repressiya dalğasında "əks-inqilabi fəaliyyət" ittihamı ilə güllələndi. Hüseyn Cavid "pantürkist ideyaların təbliği" ittihamı ilə həbs edilərək Sibirə sürgün olundu və orada vəfat etdi. Əhməd Cavad "millətçilik" və "antisovet fəaliyyət" ittihamları ilə repressiyaya məruz qaldı. Bu cinayət işləri sovet istintaq sistemində ideoloji meyarlara əsaslanan hüquqi konstruksiyalar kimi formalaşdırılırdı.

Bu prosesin daha geniş nəticəsi Azərbaycan intellektual mühitində struktur dəyişiklikləri yaratması idi. Ziyalı təbəqənin bir hissəsi fiziki olaraq məhv edilirdi, digər hissəsi ideoloji uyğunlaşma çərçivəsində fəaliyyətini davam etdirməyə məcbur qalırdı. Beləliklə, elmi və ədəbi düşüncə xəttində davamlılıq qırılır, fikir cərəyanları selektiv şəkildə formalaşırdı.

Təhsil və milli kimlik fenomeninin konseptual əsasları

XX əsrin son mərhələsində, xüsusilə, 1980-ci illərin sonu və 1991-ci il ərəfəsində ideoloji monolitlik zəifləməyə başladı. Milli dillərin və mədəni komponentlərin rolu artdı, təhsil sistemi daxilində milli kimliklər yenidən aktuallaşdı. Bu proses sovet ideoloji modelindən milli dövlətçilik mərhələsinə keçidin intellektual əsaslarını formalaşdırdı.

Beləliklə, sovet təhsil sistemi milli kimliyin formalaşmasında həm inteqrasiyaedici, həm də transformasiyaedici ideoloji mexanizm kimi çıxış etmişdir. Bu modeldə kimlik çoxqatlı strukturda saxlanılır, lakin üstün identiklik kimi vahid siyasi-sosial çərçivə formalaşdırılırdı.

Azərbaycan təhsil sistemi və gözləntilər Zəfər kontekstində

Müasir Azərbaycan dövlətinin inkişaf siyasətində təhsil sistemi dövlətin uzunmüddətli dayanıqlığını təmin edən əsas istiqamətlərdən biri hesab olunur. Təhsilə bu şəkildə yanaşılması insan kapitalının inkişafı ilə yanaşı, ictimai sabitliyin qorunmasına, strateji düşüncə qabiliyyətinin güclənməsinə və dövlətçilik şüurunun formalaşmasına mühüm təsir göstərir. Təhsil həm də təhlükəsizlik mühiti ilə sıx bağlıdır. Burada söhbət təkcə hərbi təhlükəsizlikdən getmir, informasiya axınları, sosial sabitlik, mədəni davamlılıq və vətəndaş şüuru da bu çərçivəyə daxildir. Bu mənada təhsil sistemi dövlətin "yumşaq güc" elementlərindən biri kimi formalaşır.

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi dövlətçilik xəttində təhsil həmişə xüsusi yer tutub. O, təhsili milli təhlükəsizliyin əsas dayaqlarından biri kimi görür və gələcəyin savadlı, milli ruhlu kadrlarla qurulacağını vurğulayırdı. Onun məşhur "Təhsil millətin gələcəyidir" fikri bu yanaşmanın ən qısa ifadəsidir. Sovet dövründə minlərlə azərbaycanlı gəncin nüfuzlu ali məktəblərə göndərilməsi də məhz bu strateji baxışın tərkib hissəsi idi. 1970-1980-ci illərdə Azərbaycandan minlərlə gəncin keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi milli kadr potensialının formalaşdırılması istiqamətində uzunmüddətli dövlət siyasətinə çevrilməsi də gələcək müstəqil dövlətçilik modelinin intellektual bazasının hazırlanmasına xidmət edirdi. Yaponiyada tələbələrlə görüşü zamanı "Dilinizi, dininizi, milli adət-ənənələrinizi unutmayın. Öz milli köklərinizə bağlı olun" söyləməsi Ümummilli Lider Heydər Əliyevin təhsil və milli kimlik arasındakı əlaqənin nə qədər sinxron olduğunu bir daha təsdiq edir.

Prezident İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu yanaşma daha aydın strateji istiqamət qazanmış, təhsil siyasəti Azərbaycanın uzunmüddətli inkişaf məqsədləri ilə daha sıx əlaqələndirilmişdir. Təhsil sahəsində aparılan dəyişikliklər proqram və infrastruktur yenilənməsi ilə birgə cəmiyyətin gələcək ehtiyaclarına cavab verən insan potensialının formalaşdırılmasına yönəlmişdir. Rəqəmsal texnologiyaların tətbiqi, innovasiya mühitinin genişlənməsi və elmi tədqiqat imkanlarının artırılması bu siyasətin əsas istiqamətləri sırasında yer almışdır.

Bu gün təhsil iqtisadi inkişafın tərkib hissəsi kimi qiymətləndirilir. Çünki müasir dövrdə güclü iqtisadiyyat təbii resurslara yanaşı, bilik və bacarıqlara əsaslanan insan kapitalına da ehtiyac duyur. Bu baxımdan məktəb və universitetlər əmək bazarının tələblərinə uyğun düşünən, texnologiyadan istifadə etməyi bacaran, eyni zamanda milli dəyərlərə bağlı vətəndaşların hazırlanmasında mühüm rol oynayır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" çərçivəsində də insan kapitalının inkişafı əsas istiqamətlərdən biri kimi müəyyən edilmişdir. Burada əsas məqsəd peşəkar kadr hazırlamaq, eyni zamanda dəyişən dünyaya uyğunlaşa bilən, təşəbbüskar, sosial məsuliyyət hissi olan və ölkənin inkişafında iştirak edən fərdlərin yetişdirilməsidir. Məsələn, işğaldan azad olunmuş ərazilərdə yeni məktəblərin və təhsil mühitinin qurulması həmin bölgələrin sosial və mədəni həyatının yenidən formalaşdırılması kimi də qiymətləndirilə bilər.



Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən həyata keçirilən humanitar siyasət təhsilin sosial təhlükəsizlik komponentini gücləndirir. Təhsil infrastrukturunun inkişafı, regionlarda məktəb şəbəkəsinin genişləndirilməsi və mədəni irsin qorunmasına yönəlmiş layihələr sosial bərabərliyin təmin olunmasına və regionlararası inkişaf fərqlərinin azaldılmasına xidmət edir. Bu proses sosial inteqrasiyanı gücləndirməklə yanaşı, dövlətin daxili sabitlik potensialını artırır.

Möhtəşəm Zəfərimizdən sonrakı mərhələdə milli kimliyin möhkəmləndirilməsi prosesi çox əhəmiyyətli hadisə olaraq xüsusi diqqət tələb edir. Bu dövr təhsil üçün ayrıca mənəvi və ideoloji məsuliyyət yaradır. Bu mərhələdə əsas məsələ Zəfərimizi yalnız tarixi hadisə kimi saxlamaq yox, onu ictimai şüurun daimi hissəsinə çevirməkdir. Burada təhsil sistemi xüsusi rol oynayır. Zəfərin təhsildə təqdimatı təkcə tarix dərsi məsələsi yox, həm də identiklik məsələsidir.

Zəfərin təhsilə inteqrasiyası onun emosional çərçivədən çıxaraq düşüncə səviyyəsinə yüksəlməsini təmin edir. Qürur hissi yalnız duyğu kimi qaldıqda zəifləyə bilir, amma təhsil vasitəsilə bu hiss daha sabit və davamlı bir ideyaya çevrilir.

Kollektiv yaddaş nəzəriyyələrində də göstərilir ki, cəmiyyət öz keçmişini daim yenidən qurur. Milli kimlik nəzəriyyələrində kollektiv yaddaş anlayışı cəmiyyətin özünü anlama mexanizmi kimi xarakterizə olunur. Fransız sosioloqu Moris Halbvaks (Maurice Halbwachs) göstərirdi ki: "Fərdi yaddaş yalnız sosial çərçivələr daxilində mövcuddur, kollektiv yaddaş isə cəmiyyətin özünü davamlı olaraq yenidən qurma mexanizmidir". Belə yanaşma şanlı Zəfərimizin təhsil sistemində xüsusi metodoloji yanaşma ilə təqdim edilməsinin əhəmiyyətini ortaya qoyur. Çünki qələbə tarixi fakt olmaqla yanaşı, milli mənəvi strukturun formalaşdırılmasına təsir edən mühüm simvolik hadisə kimi çıxış edir.

Bu kontekstdə təhsildən gözləntilər odur ki, möhtəşəm Zəfərimizi informativ bilik səviyyəsindən fəlsəfi və siyasi düşüncə kateqoriyasına çevirməyi öhtəsinə götürsün. Bunun üçün məktəb və universitetlərdə Zəfərimiz, ona aparan siyasi iradə, sosial birlik, milli həmrəylik, vətəndaş məsuliyyəti və dövlətçilik konsepsiyası sistemli şəkildə təhlil olunmalıdır. Həmçinin bu prosesin milli psixologiyada yaratdığı dəyişiklikləri də cəmiyyətə izah etməlidir. Məhz bu yanaşma ilə fərdlərin keçmişə münasibətini passiv müşahidədən aktiv identifikasiya mərhələsinə keçirmək olar. Zəfərimizin təhsil müstəvisində inteqrasiyası milli kimliyin emosional komponenti ilə intellektual komponenti arasında əlaqə yaradacağı şübhəsizdi. Qələbə ancaq hiss olunan duyğu formasında saxlanılarsa, zamanla emosional zəifləmə riski ilə qarşılaşar. Təhsil isə həmin duyğunu konseptual düşüncəyə çevirərək onun uzunmüddətli sosial təsirini qorumaq gücünə malikdir. Bu səbəbdən Zəfər anlayışı məktəb mühitində dövlətçilik fəlsəfəsinin praktik nəticəsi kimi təqdim olunmalıdır. Qələbənin milli qürura çevrilməsi prosesi məhz təhsildən başlamalıdı, çünki milli qürur cəmiyyətin öz potensialına inamını gücləndirən, gələcəyə yönəlmiş fəaliyyət motivasiyası yaradan və kollektiv məsuliyyət hissini artıran sosial-psixoloji kateqoriyadır. Qalibiyyətin qürura transformasiyası cəmiyyətin özünə inamını sabitləşdirir, milli inkişafın mənəvi bazasını möhkəmləndirir və dövlətçilik düşüncəsini dərinləşdirir. Düşünürəm ki, belə yanaşma məktəb mühitində formalaşan "qalibiyyətdən-qürura" düşüncə modeli gələcək nəsillərin dövlətə münasibətini formalaşdırar, milli maraqları yüksəldər və kollektiv dəyərlərlə əlaqəsin dərinləşdirər.

Belə yanaşma olarsa, Qələbəmiz xalqımızın sürunda yalnız keçmiş hadisə kimi qalmayacaq, eyni zamanda milli inkişafın gələcək trayektoriyasını müəyyən edən ideoloji baza rolunu oynayacaq.

Müqayisəli baxanda görünür ki, təhsilə baxış müxtəlif yanaşmaları özündə ehtiva edir. Hər ölkə onu öz tarixi, siyasi təcrübəsi və cəmiyyətin ehtiyaclarına görə formalaşdırıb. Ona görə də müasir dünyanın qüdrətli dövlətləri sırasında yer alan Azərbaycan təhsil sistemini formalaşdırarkən, bu modellərin işlək tərəflərini tarixi keçmiş və mental dəyərlər sistemimizə uyğun olanlarını seçməlidir.

Belə qənaətə gəlmək olar ki, alman təcrübəsindən götürülə bilən əsas xətt tarix və dövlətçilik şüurunun ardıcıl, məntiqi bir inkişaf kimi öyrədilməsidir. Yəni şagird tarixə təkcə keçmiş hadisələr kimi baxmamalı, onun bugünkü dövlət düşüncəsinə necə gəlib çıxdığını hiss etməlidir. Bu, milli kimliyi daha dərin və düşünülmüş şəkildə möhkəmləndirir.

Fransız modelində isə vətəndaşlıq ideyası ön plandadır. Orada məktəb həm də insanın necə davranacağını öyrəndiyi məkandır. Azərbaycan üçün də bu vacibdir: şagird öz hüququnu bildiyi kimi, məsuliyyətini də dərk etməlidir. Bu balans olmayanda milli kimlik daha çox şüar səviyyəsində qalır.

Sovet təcrübəsinin müsbət tərəfi kimi isə təhsilin geniş kütlələrə açılması və sosial yüksəliş imkanı yaratması qeyd oluna bilər. Bu yanaşma ideoloji yükdən təmizlənib bərabər təhsil imkanları və regionlar arasında fərqin azaldılması formasında davam etdirilə bilər. Bu, milli kimliyin "hamıya aid" hissini gücləndirir.

Yapon modeli isə tamam başqa bir məqamı göstərir: milli kimlik təkcə dərsdə öyrədilmir, gündəlik davranışda yaşayır. İntizam, qarşılıqlı hörmət, kollektiv məsuliyyət - bunlar məktəbin içində formalaşanda cəmiyyətin bütövlüyü də daha dayanıqlı olur.

Bu dörd xətt bir araya gələndə Azərbaycan təhsilinin əsas istiqaməti də aydın görünür: tarixdən gələn yaddaşı qorumaq, vətəndaşlıq şüurunu gücləndirmək, təhsili hamı üçün əlçatan saxlamaq və davranış mədəniyyətini məktəbin içində formalaşdırmaqla daha da inkişaf etdirmək. Bu çərçivədə möhtəşəm Zəfərimiz ayrıca bir dönüş nöqtəsi kimi təqdim olunmalıdır. Düzgün yanaşma ilə Zəfərimizi zamanla qürura çevirməli - yəni emosional hissdən çıxıb düşünülmüş milli kimlik elementinə dönməkdir. Bu keçid çox vacibdir, çünki qürur hissi cəmiyyətin öz gələcəyinə inamını sabitləşdirir. Bu qarşıdakı qələbələrin açarı ola bilər.

Ümumiləşdirsək, bu qənaətə gələ bilərik ki, Azərbaycan təhsili bu modellərdən hər birinin işlək mexanizmlərini bir sistemdə birləşdirməlidir. Elə bir balans qurulmalıdır ki, milli kimlik həm tarixdən qidalansın, həm vətəndaşlıqla güclənsin, həm sosial ədalətlə genişlənsin, həm də gündəlik davranışda yaşasın. Bu halda Zəfər də sadəcə bir tarix yox, davam edən milli şüurun dayağına çevrilər.

Sadiq QURBANOV,
Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri

Şimali Makedoniya Prezidenti:

"Avropa Siyasi Birliyi"nin sammitinin 2028-ci ildə Azərbaycanda keçirilməsi etimad göstəricisidir"

"Avropa Siyasi Birliyi"nin sammitinin 2028-ci ildə Azərbaycanda keçirilməsi etimad göstəricisidir. Bu, Azərbaycanın həm də ciddi sabitlik amili kimi qəbul edildiyini göstərir".



AZƏRTAC xəbər verir ki, bu sözləri **Şimali Makedoniya Respublikasının Prezidenti Qordana Silyanovska-DAVKOVA** jurnalistlərə açıqlamasında deyib.

Şimali Makedoniyanın dövlət başçısı qeyd edib ki, əgər Azərbaycan bu gün buradadırsa və növbəti görüş məhz orada keçiriləcəksə, nəticə belədir: bəli, Avropa İttifaqı münasibətlərini Avrasiya və Asiya istiqamətində genişləndirir. O, bu prosesdə Azərbaycanın rolunun unudulmamalı olduğunu vurğulayıb.

Azərbaycanın gözəl ölkə olduğunu bildirən Prezident Qordana Silyanovska-Davkova deyib: "Bu, yalnız COP-un keçirilməsi və onun yüksək səviyyədə təşkili ilə bağlı deyil. Bu, təkcə Nizami Gəncəvi ilə də əlaqəli deyil. Mən onun haqqında çox şey öyrənmişəm. Bilirəm ki, o, sizin mədəniyyətiniz, tarixiniz və xalqınız üçün nə qədər böyük əhəmiyyət daşıyır. Həqiqətən də, Azərbaycanda çox dəyərli müzakirələr apardıq və onları heç vaxt unutmayacağam".

Azərbaycan EPC-nin əlavə öhdəliklər yaradan sənədlərinə qoşulmayıb

Azərbaycan "Avropa Siyasi Birliyi"nin (EPC) 9-cu Zirvə toplantısı çərçivəsində qəbul olunmuş Avropa təhlükəsizliyi, miqrasiya və narkotik maddələrin dövriyyəsi ilə bağlı sənədlərə qoşulmayıb.



AZƏRTAC xəbər verir ki, bu barədə **Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan HACIZADƏ** medianın sualına cavabında bildirib.

O qeyd edib ki, noyabrın 12-də Dublin şəhərində "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısı zamanı bəzi ölkələrin təşəbbüsü əsasında irəli sürülmüş "Avropa təhlükəsizliyinin əsas prinsipləri haqqında Bəyannaməyə", "Miqrasiya haqqında Bəyanata" və "Narkotiklərə qarşı Avropa Koalisiyasının Bəyanatına" bir sıra ölkələr qoşulub.

"Məlumdur ki, EPC ölkələr arasında qarşılıqlı etimadın və əməkdaşlığın təşviqi məqsədi daşıyan qeyri-rəsmi dialoq platforması kimi formalaşıb. Ölkəmizin EPC-də iştirakının məqsədi ümumi maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparmaq, ortaq çağırışlara dair yanaşmaları müzakirə etmək və iştirakçı ölkələrlə əməkdaşlıq imkanlarını genişləndirməkdir. Bununla əlaqədar, Azərbaycan tərəfi hüquqi və siyasi cəhətdən əlavə öhdəlik yaradan sözügedən sənədlərə qoşulmayıb", - deyə Ayxan Hacızadə vurğulayıb.

Ermənistan konstitusiyasını dəyişə biləcəkmi?



Ermənistanın yeni konstitusiya layihəsinin yaxın günlərdə ictimaiyyətə təqdim edilməsi ehtimalı kifayət qədər yüksəkdir. Bu artıq yalnız mediada yayılan məlumat deyil, Ermənistan rəsmilərinin də açıqlamaları ilə müəyyən mənada təsdiqini tapır. Belə ki, noyabrın 2-də Ermənistan Baş naziri Nikol Paşinyan konstitusiya layihəsinin məhz noyabr ayında dərc olunacağını bildirmişdi. Ədliyyə naziri Srbuhi Qalyan sənədin 95 faizdən çoxunun konstitusiya islahatları şurasında müzakirə edildiyini açıqlamışdı. Nazir layihənin noyabr ayının ortalarında təqdim olunmasını istisna etməmişdi. Bu baxımdan, sənədin gələcək həftədə təqdimatı real ehtimal kimi qiymətləndirilə bilər. Ancaq hələlik konkret gün rəsmi elan edilməyib və müəyyən gecikmələr də istisna olunmur.

Beynəlxalq Münasibətlərin Təhlili və Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi Fuad ABDULLAYEV qəzetimizə açıqlamasında dedi ki, burada ən mühüm siyasi məsələ Müstəqillik Bəyannaməsinə istinadın yeni konstitusiyadan çıxarılmasıdır: "Paşinyan hələ mart ayında, daha sonra avqustun 24-də açıq şəkildə bəyan etmişdi ki, yeni konstitusiyada 1990-cı il Müstəqillik Bəyannaməsinə istinad olmamalıdır. O bunu Qarabağ hərəkatının başa çatdırılması və Ermənistanın münaqişə məntiqindən uzaqlaşması zərurəti ilə əsaslandırmışdı. Bu baxımdan, gözlənti ondan ibarətdir ki, təqdim olunacaq layihənin preambulasında Müstəqillik Bəyannaməsinə istinad yer almayacaq. Bununla belə həmin müddəanın sənəddən çıxarıldığını yalnız layihənin rəsmi mətni dərc edildikdən sonra qəti şəkildə təsdiqləmək mümkün olacaq".

Siyasi şərhçi bildirdi ki, Azərbaycan üçün bu məsələ prinsipial əhəmiyyət daşıyır. Çünki Ermənistanın mövcud konstitusiyasının preambulasında istinad edilən Müstəqillik Bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları yer alır. Lakin nəzərə almaq lazımdır ki, layihənin dərc olunması hələ konstitusiyanın dəyişdirilməsi demək deyil. Ermənistanda bununla bağlı kifayət qədər mürəkkəb daxili siyasi və hüquqi proses müşahidə olunur. "Layihə əvvəlcə geniş ictimai müzakirəyə çıxarılacaq, daha sonra hökumətdə təsdiqlənərək parlamentə təqdim ediləcək. Ermənistanın ədliyyə naziri də bildirmişdi ki, bu müzakirələrin 2026-cı ilin sonuna qədər yekunlaşması real görünmür. Digər mühüm problem parlamentdə lazımi səs çoxluğunun təmin olunmasıdır", - deyə o əlavə etdi.


F.Abdullayev vurğuladı ki, Ermənistanın mövcud konstitusiyasına əsasən yeni konstitusiyanı referenduma çıxarmaq üçün deputatların üçdəikisinin dəstəyi tələb olunur. Hakim partiyanın isə hazırda bunun üçün əlavə altı səsə ehtiyacı var. Üstəlik, Ermənistanın 13 müxalifət qüvvəsi konstitusiya dəyişikliklərinə qarşı birgə mövqe nümayiş etdirib. Müxalifət bu prosesi Azərbaycanın tələbləri ilə əlaqələndirir və Paşinyana qarşı siyasi mübarizə vasitəsinə çevirməyə çalışır. Müxalifət artıq ictimaiyyət arasında bu istiqamətdə fəal təbliğat işi də aparır.

Ekspertin fikrincə, Paşinyan hökuməti yeni konstitusiya layihəsini təqdim etməklə iki məqsəd güdür: "Birincisi, Azərbaycanla sülh sazişi qarşısında duran əsas maneələrdən birinin aradan qaldırılması istiqamətində siyasi iradəsini nümayiş etdirməkdir. İkincisi isə bu məsələni Ermənistan daxilində sülhün davam etdirilməsi ilə münaqişə siyasətinə qayıdış arasında seçim kimi təqdim etməkdir. Noyabr ayında, böyük ehtimalla isə gələn həftə layihə təqdim olunacaq. Lakin bundan sonrakı mərhələ daha mürəkkəb olacaq. Əsas məsələ Müstəqillik Bəyannaməsinə istinadın layihədən çıxarılması deyil, həmin dəyişikliyin hüquqi qüvvə qazanmasıdır. Azərbaycan üçün də əsas nəticə məhz bu olacaq. Çünki sülh prosesində həlledici əhəmiyyət daşıyan məsələ siyasi vədlərdən daha çox ərazi iddialarına hüquqi əsas yaradan müddəaların Ermənistanın konstitusion sistemindən çıxarılmasıdır".

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Media və Yayım Şurası açıqlama yayıb

Bir sıra media resurslarında Azərbaycan ilə Ermənistan arasında transsərhəd çayların idarə olunması üzrə işçi qruplarının yaradılmasına dair xəbərlərin materialın predmetinə aid olmayan fotoşəkillərlə təqdim edilməsi manipulyativ vizual təqdimat nümunəsidir.



AZƏRTAC xəbər verir ki, bu barədə Media və Yayım Şurasının açıqlamasında bildirilib.

Açıqlamada, həmçinin deyilir: "Bu cür təqdimat auditoriyada xəbərin məzmunu, hadisənin coğrafi məkanı və tərəflər arasında aparılan əməkdaşlığın mahiyyəti barədə yanlış təsəvvür formalaşdıra bilər. Eyni görüntülərin digər media resurslarında və sosial şəbəkə platformalarında təkrar paylaşılması isə yanlış təsəvvürlərin daha geniş auditoriyaya yayılmasına və mövzu ətrafında əsassız müzakirələrin yaranmasına zəmin yaradır.

Azərbaycan Respublikası Media və Yayım Şurası media subyektlərini xəbərlərin vizual tərtibatında istifadə olunan materialların mənbəyini və çəkildiyi yeri dərc etməzdən əvvəl yoxlamağa, vizual materialların xəbərin məzmununa uyğunluğunu təmin etməyə və auditoriyanı yanıltmağa səbəb ola biləcək təqdimatlara yol verməməyə çağırır".



Dublin Sammiti Azərbaycanın qlobal siyasi məkanda rolunun genişləndiyini nümayiş etdirdi

Noyabrın 12-də İrlandiyanın paytaxtı Dublində keçirilən "Avropa Siyasi Birliyi"nin (ASB) 9-cu Zirvə toplantısı Azərbaycanın Avropa siyasi məkanında artan rolunu nümayiş etdirən mühüm diplomatik hadisələrlə yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin sammit çərçivəsində qarşı tərəflərin müraciəti əsasında keçirdiyi yüksəksəviyyəli görüşlər, Böyük Britaniya ilə münasibətlərin rəsmən strateji tərəfdaşlıq pilləsinə yüksəldilməsi və Azərbaycan-Ermənistan sülh gündəliyinin müzakirəsi ölkəmizin Avropa ilə əlaqələrinin getdikcə daha geniş siyasi və iqtisadi məzmun qazandığını göstərdi.

Amma Dublin Sammitinin Azərbaycan üçün əhəmiyyəti yalnız ikitərəfli görüşlərin intensivliyi ilə məhdudlaşmır. 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısının Bakıda keçirilməsi qərarı Dublindəki diplomatik təmaslara xüsusi strateji məna verdi. Bu iki hadisə arasında mühüm siyasi əlaqə mövcuddur: Azərbaycan bir tərəfdən, Avropanın təhlükəsizlik, enerji və nəqliyyat gündəliyinin fəal iştirakçısı kimi çıxış edir, digər tərəfdən isə müxtəlif geosiyasi məkanlar arasında dialoqu təşviq edən beynəlxalq platformaların təşkilində daha böyük rol götürməyə hazırlaşır.

Əslində, Dublindən Bakıya uzanan bu diplomatik xətt Azərbaycanın son illər həyata keçirdiyi çoxşaxəli xarici siyasətin məntiqi davamıdır. Avropa ilə strateji tərəfdaşlıqların dərinləşdirilməsi, Cənubi Qafqazda sülh prosesinin irəlilədilməsi, Mərkəzi Asiya ilə bağlantıların gücləndirilməsi və beynəlxalq dialoq platformalarında fəal iştirak vahid xarici siyasət yanaşmasının müxtəlif istiqamətlərini təşkil edir.

Avropanın strateji gündəliyində Azərbaycanın yeri

"Avropa - güclü, təhlükəsiz və əlaqəli" mövzusuna həsr olunmuş Dublin Sammiti Avropa qitəsinin üzləşdiyi mürəkkəb geosiyasi və iqtisadi çağırışların müzakirəsi üçün mühüm platforma oldu. Avropa liderlərinin diqqət mərkəzində təhlükəsizlik və müdafiə, iqtisadi rəqabətqabiliyyətliliyin artırılması, enerji təchizatının dayanıqlılığı, innovasiyalar və nəqliyyat bağlantılarının inkişafı dayanırdı.

50-yə yaxın dövlət və hökumət başçısının iştirak etdiyi sammitin gündəliyi, təbii ki, Azərbaycanın strateji maraqları ilə də bir sıra istiqamətlərdə birbaşa kəsişirdi. Çünki Avropa üçün enerji mənbələrinin şaxələndirilməsi, alternativ nəqliyyat marşrutlarının inkişafı və qonşu regionlarda sabitliyin möhkəmlənməsi nə qədər əhəmiyyətlidirsə, Azərbaycan üçün Avropa bazarlarına çıxış, beynəlxalq investisiyaların cəlbi və regional əməkdaşlığın genişləndirilməsi də bir o qədər vacibdir.

2022-ci ildə Praqada təsis edilmiş "Avropa Siyasi Birliyi"nin əsas üstünlüklərindən biri onun Avropa İttifaqına üzv və üzv olmayan dövlətləri eyni siyasi dialoq müstəvisində birləşdirməsidir. Platformanın qeyri-rəsmi və məşvərətçi xarakteri fərqli mövqelərə malik ölkələr arasında birbaşa təmasların qurulmasına, mürəkkəb məsələlərin daha çevik formatda müzakirəsinə imkan yaradır. Bu baxımdan Azərbaycanın həmin platformaya yanaşmasında da dialoq imkanlarının genişləndirilməsi mühüm yer tutur.

Amma Dublin Sammiti göstərdi ki, Azərbaycanın Avropa siyasi məkanında iştirakı artıq yalnız enerji təchizatçısı və ya regional tranzit ölkəsi statusu ilə izah oluna bilməz. Ölkəmiz təhlükəsizlik, regional sülh, iqtisadi əməkdaşlıq və beynəlxalq bağlantılarla əlaqədar müzakirələrdə də maraqları nəzərə alınan tərəfdaş kimi çıxış edir. Prezident İlham Əliyevin Dublin çərçivəsində Böyük Britaniya, Avropa İttifaqı, Ukrayna, Moldova, Yunanıstan, Bolqarıstan, Çexiya və digər ölkə və qurumların rəhbərləri ilə onların təşəbbüsləri əsasında keçirdiyi görüşlər bu diplomatik fəallığın konkret təzahürü idi.

Azərbaycan-Böyük Britaniya münasibətlərində yeni tarixi mərhələ

Bütün bunların fonunda Dublin Sammitinin ən mühüm nəticələrindən biri Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamənin qəbul edilməsi oldu. Azərbaycan Prezidenti İlham Əliyev və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnham arasında keçirilmiş görüşdə mübadilə olunan sənəd iki ölkə arasındakı uzunmüddətli əməkdaşlığın yeni siyasi çərçivəsini müəyyənləşdirdi.

Bəyannamənin əhəmiyyəti onun qarşılıqlı münasibətlərin əhatə dairəsini daha da genişləndirməsindədir. Sənəd müdafiə və təhlükəsizlik, ticarət, investisiya və iqtisadi artım, eləcə də təhsil və innovasiya olmaqla üç əsas istiqaməti əhatə edir. Bu yanaşma Azərbaycan-Böyük Britaniya münasibətlərinin ənənəvi enerji tərəfdaşlığından daha çoxşaxəli strateji əməkdaşlıq modelinə keçidini nəzərdə tutur.

Böyük Britaniya Azərbaycanın müstəqilliyinin ilk illərindən ölkəmizin iqtisadiyyatına böyük həcmdə sərmayə yatıran əsas tərəfdaşlardandır. Xüsusilə neft-qaz sektorunda 30 ildən artıq davam edən uğurlu tərəfdaşlıq ikitərəfli münasibətlərin möhkəm iqtisadi təməlini formalaşdırıb. Prezident İlham Əliyevin Dublin görüşündə Böyük Britaniyanı Azərbaycanın ən böyük avropalı investoru kimi xarakterizə etməsi bu əməkdaşlığın miqyasını əks etdirir. Yeni mərhələnin fərqləndirici xüsusiyyəti isə enerji sahəsində formalaşmış etimadın digər strateji sektorlara da daşınması imkanlarıdır.

İlk növbədə müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın genişləndirilməsi diqqət çəkir. Bəyannamədə hərbi təlimlər, potensialın artırılması, müdafiə sənayesi üzrə mümkün birgə təşəbbüslər, sərhəd idarəçiliyi və hüquq-mühafizə orqanları arasında əlaqələrin gücləndirilməsi nəzərdə tutulur. Bu istiqamətlər tərəflərin münasibətlərinin iqtisadi əməkdaşlıqdan daha geniş təhlükəsizlik ölçüsünə keçdiyini göstərir.

İqtisadi blokda isə birpaolunan enerji, infrastruktur, Orta dəhliz, ticarətin maliyyələşdirilməsi, kapital bazarları və "yaşıl maliyyə" xüsusi yer tutur. Bu müddəalar Azərbaycanın iqtisadi şaxələndirmə strategiyası baxımından əhəmiyyətlidir. Böyük Britaniyanın maliyyə bazarları, texnologiya və peşəkar xidmətlər sahəsindəki təcrübəsi Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun inkişafı üçün əlavə imkanlar yaradacaq. Xüsusilə maliyyə və kapital bazarlarında əməkdaşlığın genişləndirilməsi perspektivi diqqətəlayiqdir. Sənəddə maliyyə institutları arasında təcrübə mübadiləsi, kiçik və orta biznesin maliyyələşdirilməsi, "yaşıl investisiya"lar və beynəlxalq bazarlara çıxışın asanlaşdırılması kimi istiqamətlərin yer alması tərəfdaşlığın uzunmüddətli iqtisadi məzmununu gücləndirir.

Üçüncü istiqamət - təhsil və innovasiya isə əməkdaşlığın insan kapitalı və texnoloji transformasiya üzərində qurulmasını nəzərdə tutur. Süni intellekt, rəqəmsal idarəetmə, elmi tədqiqatlar, texniki və peşə bacarıqları üzrə əməkdaşlıq Azərbaycan üçün xüsusilə aktualdır. Çünki müasir iqtisadi rəqabət bilik, texnologiya və innovasiya potensialından da çox asılıdır. Bəyannamədə illik Strateji Tərəfdaşlıq görüşlərinin keçirilməsinin nəzərdə tutulması isə sənədin mühüm praktiki elementidir. Bu mexanizm əməkdaşlığın davamlı monitorinqinə, prioritetlərin yenilənməsinə və konkret layihələrin izlənilməsinə imkan verə bilər.

Ümumiyyətlə, Dublin Bəyannaməsi Azərbaycan-Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı münasibətlərində mövcud əməkdaşlığın siyasi təsdiqi olmaqla yanaşı, onun gələcək inkişafı üçün daha geniş strateji çərçivə yaradır.

Azərbaycanın Avropa üçün artan strateji əhəmiyyəti

Azərbaycanın Avropa ilə münasibətlərində enerji təhlükəsizliyi mühüm yer tutmaqda davam edir. Xüsusən son illər beynəlxalq enerji bazarlarında baş verən dəyişikliklər, təchizatın şaxələndirilməsi zərurəti və alternativ mənbələrə tələbat ölkəmizin bu sahədə rolunu daha da artırıb.

2022-ci ildə Azərbaycanla Avropa Komissiyası arasında enerji sahəsində strateji tərəfdaşlığa dair Anlaşma Memorandumunun imzalanması əməkdaşlığın inkişafında mühüm mərhələ oldu. "Cənub qaz dəhlizi" vasitəsilə Avropaya qaz tədarükünün genişlənməsi ölkəmizin etibarlı enerji tərəfdaşı kimi mövqeyini daha da gücləndirdi. Lakin Azərbaycanın Avropa üçün strateji əhəmiyyəti artıq yalnız ənənəvi enerji resursları ilə məhdudlaşmır. Bərpaolunan enerji layihələri, Xəzərin külək enerjisi potensialı, günəş enerjisinin inkişafı, Mərkəzi Asiya ilə "yaşıl enerji" bağlantıları və Qara dəniz üzərindən elektrik enerjisinin ötürülməsi təşəbbüsləri əməkdaşlığa yeni məzmun verir. Bu prosesdə Azərbaycanın üstünlüyü ənənəvi enerji resurslarının ixracatçısı olmaqla yanaşı, gələcəkdə "yaşıl enerji" istehsalı və tranzitində də mühüm mövqe qazanmaq potensialına malik olmasıdır. Dublin Sammitinin iqtisadi rəqabətqabiliyyətlilik və enerji təhlükəsizliyi gündəliyi də məhz bu istiqamətdə əməkdaşlığın aktuallığını təsdiqləyir.

Digər mühüm amil nəqliyyat və logistika bağlantılarıdır. Qlobal ticarət marşrutlarının dəyişdiyi, geosiyasi risklərin artdığı və təchizat zəncirlərinin dayanıqlılığının strateji əhəmiyyət qazandığı bir dövrdə Orta dəhliz Avropa ilə Asiya arasında alternativ bağlantı kimi ön plana çıxır. Çin və Mərkəzi Asiyadan Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanan bu marşrut ölkəmizin coğrafi mövqeyini iqtisadi və geosiyasi üstünlüyə çevirmək imkanlarını genişləndirir.

Orta dəhlizin inkişafı yalnız yeni yolların və logistika infrastrukturlarının qurulması demək deyil. Burada gömrük prosedurlarının sadələşdirilməsi, rəqəmsal həllərin tətbiqi, sərhəd-keçid proseslərinin sürətləndirilməsi, tarif siyasətinin koordinasiyası və nəqliyyat sistemlərinin qarşılıqlı uyğunlaşdırılması həlledici əhəmiyyət daşıyır. Azərbaycanın Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, inkişaf etdirilmiş dəmir yolu infrastrukturu, regional bağlantı layihələri bu baxımdan mühüm imkanlar yaradır.

Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı ilə imzalanmış Strateji Tərəfdaşlıq Bəyannaməsində Orta dəhlizin inkişafına ayrıca yer ayrılması da diqqətəlayiqdir. Bu, layihənin yalnız region ölkələrinin deyil, daha geniş Avropa iqtisadi və siyasi dairələrinin maraq göstərdiyi strateji istiqamətə çevrildiyini nümayiş etdirir. Əslində, enerji və nəqliyyat əməkdaşlığı Azərbaycanın Avropa üçün əhəmiyyətini bir-birini tamamlayan iki istiqamətdə artırır. Bir tərəfdən, ölkəmiz Avropanın enerji təchizatının şaxələndirilməsinə töhfə verir, digər tərəfdən isə Avropa ilə Asiya arasında iqtisadi əlaqələrin gücləndirilməsi üçün mühüm tranzit imkanları təqdim edir. Bu iki amilin birləşməsi Azərbaycanla Avropa arasında münasibətlərin uzunmüddətli strateji xarakterini gücləndirir.

Cənubi Qafqazda sülh gündəliyi

Sammitin mühüm siyasi istiqamətlərindən biri də Dublində Cənubi Qafqazda sülh prosesinin müzakirəsi oldu. Prezident İlham Əliyevin Ermənistanın Baş naziri Nikol Paşinyanla keçirdiyi görüşdə münasibətlərin normallaşdırılması, nəqliyyat və tranzit bağlantılarının inkişafı, iqtisadi əməkdaşlıq, sərhədlərin delimitasiyası və etimad quruculuğu tədbirləri ətrafında fikir mübadiləsi aparıldı. Bu görüşün əhəmiyyəti ondan ibarətdir ki, Azərbaycan-Ermənistan münasibətlərində sülh gündəliyi tədricən praktiki əməkdaşlıq məsələləri ilə daha sıx əlaqələndirilir.

2025-ci il avqustun 8-də Vaşinqtonda əldə olunmuş razılaşmalar regionda münasibətlərin normallaşdırılması üçün mühüm siyasi zəmin yaratdı. Bundan sonrakı mərhələdə isə əsas məsələ əldə edilmiş nəticələrin davamlı sülhə, qarşılıqlı etimada və konkret iqtisadi əməkdaşlıq mexanizmlərinə çevrilməsidir. Dublin görüşündə nəqliyyat əlaqələrinin bərpası, TRIPP marşrutu üzrə infrastrukturun yaradılması, elektrik şəbəkələrinin gələcək əlaqələndirilməsi və digər praktiki məsələlərin müzakirəsi sülh prosesinin daha geniş regional inkişaf gündəliyi ilə birləşdiyini göstərir.

Bu kontekstdə Böyük Britaniya ilə qəbul edilmiş Strateji Tərəfdaşlıq Bəyannaməsində Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılmasına dəstəyin ifadə olunması diqqətdən qaçmamalıdır. Londonun ikitərəfli dialoq yolu ilə davamlı sülhün əldə edilməsinə dəstəyini təsdiqləməsi Cənubi Qafqazdakı proseslərin daha geniş beynəlxalq siyasi gündəlikdə yer aldığını nümayiş etdirir.

Sülhün iqtisadi ölçüsü də xüsusi vurğulanmalıdır. Regionda nəqliyyat və kommunikasiya əlaqələrinin açılması, sərhədyanı ticarətin inkişafı, yeni tranzit imkanlarının yaradılması və qarşılıqlı investisiyalar Cənubi Qafqazın iqtisadi potensialını artırmağa xidmət edə bilər. Bu baxımdan, Azərbaycan-Ermənistan sülh prosesi yalnız iki ölkənin münasibətlərinə aid məsələ deyil. Onun uğurlu inkişafı Avropa ilə Asiya arasında bağlantıların genişlənməsi və bütövlükdə regionun iqtisadi sabitliyi üçün də əhəmiyyət daşıyır. Razılaşmaların ardıcıl icrası, institusional etimadın formalaşdırılması və praktiki əməkdaşlığın genişləndirilməsi bu prosesin uzunmüddətli nəticələrini müəyyən edəcək.

2028-ci ildə sammitə Bakı evsahibliyi edəcək

Azərbaycanın 2028-ci ildə "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısına evsahibliyi etməsi ölkəmizin Avropa siyasi məkanında artan iştirakının mühüm göstəricisidir. Bakıda keçiriləcək toplantı Avropa dövlətlərinin və hökumətlərinin rəhbərlərini, eləcə də mühüm beynəlxalq institutların təmsilçilərini bir araya gətirəcək.

Bu hadisənin əhəmiyyətini yalnız böyük beynəlxalq tədbirin təşkili ilə qiymətləndirmək düzgün olmazdı. Sammitə evsahibliyi ölkəmizə diplomatik gündəliyin formalaşdırılmasında, müzakirələrin prioritetlərinin müəyyənləşdirilməsində və tərəfdaşlar arasında təmasların təşviqində daha fəal rol oynamaq imkanı verir.

Bakı Avropanın təhlükəsizlik, enerji, nəqliyyat, innovasiya və regional əməkdaşlıq gündəliyinin müzakirə olunduğu əsas siyasi məkanlardan birinə çevriləcək. Bu, Azərbaycanın milli və regional prioritetlərini daha geniş beynəlxalq auditoriyaya təqdim etməsi baxımından əhəmiyyətlidir. Digər tərəfdən, sammit Avropa İttifaqına üzv və üzv olmayan dövlətlər arasında birbaşa dialoq imkanlarını genişləndirəcək. Azərbaycanın müxtəlif siyasi və iqtisadi mərkəzlərlə münasibətləri Bakıda keçiriləcək toplantının çoxtərəfli müzakirələr üçün əlverişli platforma olmasına töhfə verə bilər. Nəhayət, sammitin keçirilməsi ölkənin beynəlxalq diplomatik tədbirlərin təşkili üzrə mövcud təcrübəsini daha da genişləndirəcək.

Bu baxımdan, Dublin və Bakı sammitləri arasında mühüm siyasi ardıcıllıq mövcuddur. Dublin Azərbaycanın Avropa siyasi gündəliyində fəal iştirakını göstərirsə, Bakı bu iştirakın daha yüksək təşkilati və diplomatik səviyyədə davam etdirilməsi üçün imkan yaradacaq.

Azərbaycanın Avropa siyasi məkanındakı fəallığı ölkənin digər geosiyasi istiqamətlərlə əməkdaşlığı fonunda daha geniş məna daşıyır. Son illər ölkəmizin xarici siyasətində Avropa ilə tərəfdaşlıq, Mərkəzi Asiya ilə iqtisadi inteqrasiya, islam dünyası ilə siyasi koordinasiya və Asiya dövlətləri ilə etimad quruculuğu bir-birini tamamlayan istiqamətlər kimi inkişaf edir. Bu proseslər Azərbaycanın beynəlxalq əlaqələrinin yalnız ayrı-ayrı regional təşkilatlarda iştirakla məhdudlaşmadığını göstərir. Ölkə müxtəlif siyasi və iqtisadi məkanlar arasında ortaq maraqların müəyyənləşdirilməsinə və praktik əməkdaşlıq imkanlarının yaradılmasına çalışır.

Dublin Sammiti də Azərbaycanın qlobal siyasi məkanda rolunun genişlənməsini bir neçə istiqamətdə nümayiş etdirdi və bir daha göründü ki, Azərbaycan dövləti bu gün Avropa siyasi gündəliyində fəal iştirakını gücləndirir, müxtəlif geosiyasi məkanlar arasında əlaqələndirici rolunu inkişaf etdirir və beynəlxalq dialoqun yalnız iştirakçısı deyil, həm də təşkilatçısı kimi mövqeyini möhkəmləndirir.

İradə ƏLİYEVA,
"Azərbaycan"

Azərbaycan-Böyük Britaniya əlaqələrində yeni səhifə

Strateji tərəfdaşlıq haqqında sənəd iki ölkə arasındakı qarşılıqlı etimada əsaslanır

"Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə" ölkəmizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyünə hörmət prinsiplərinin qətiyyətlə təsdiq olunması, Azərbaycanın milli maraqlarının beynəlxalq müstəvidə qorunması baxımından müstəsna əhəmiyyət daşıyır. Birləşmiş Krallıq kimi BMT Təhlükəsizlik Şurasının daimi üzvü olan qlobal gücün BMT Nizamnaməsinə, beynəlxalq hüququn norma və prinsiplərinə, xüsusən də beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına sadiqliyini rəsmi sənəddə bəyan etməsi Azərbaycanın haqlı mövqeyinin qlobal miqyasda legitimliyini daha da möhkəmləndirir. Bu, eyni zamanda beynəlxalq münasibətlərdə ikili standartlara qarşı hüququn aliliyinin müdafiəsi baxımından mühüm siyasi mesajdır.



Milli Məclisin deputatı Kamran BAYRAMOV qəzetimizə açıqlamasında xatırlatdı ki, Ulu Öndər Heydər Əliyevin 1994-cü ildə Böyük Britaniyaya etdiyi tarixi səfər, baş nazir Con Meycor ilə keçirdiyi görüş və imzalanan mühüm sənədlər Azərbaycan-Britaniya münasibətlərində uzunmüddətli və qarşılıqlı faydalı əməkdaşlığın möhkəm təməlini qoyub: "Həmin dövrdən etibarən iki ölkə arasında müxtəlif istiqamətlərdə əlaqələr ardıcıl şəkildə genişlənərək, dərin siyasi dialoq və mühüm iqtisadi nailiyyətlərlə müşayiət olunub. Bununla yanaşı, humanitar sahədə həyata keçirilən intensiv mübadilələr xalqlarımız arasındakı bağları daha da gücləndirib və ikitərəfli münasibətləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəldib. Bütün bu uğurlu inkişaf yolunun məntiqi nəticəsi olaraq, bu gün Azərbaycan Cənubi Qafqaz regionunda və daha geniş Xəzər dənizi hövzəsində Böyük Britaniyanın ən etibarlı strateji tərəfdaşı kimi çıxış edir. İki ölkə arasında 1994-cü və 1998-ci illərdə imzalanmış sənədlərə söykənən uzunmüddətli və dinamik əlaqələr hazırda qarşılıqlı hörmət və ortaq maraqlar əsasında strateji tərəfdaşlıq səviyyəsinə yüksəlir. Tərəflər BMT Nizamnaməsinə və beynəlxalq hüququn əsas prinsiplərinə, xüsusilə də suverenlik, müstəqillik, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığına sadiqliklərini bir daha nümayiş etdirirlər. Eyni zamanda Birləşmiş Krallıq 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvəsi Bəyannaməsinin önəmini xüsusi vurğulayaraq, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan addımları alqışlayır. London ikitərəfli dialoq yolu ilə regionda davamlı sülhün təmin olunmasına yönəlmiş səylərə öz qətiyyətli və davamlı dəstəyini təsdiqləyir".

Deputat qeyd etdi ki, Azərbaycan və Böyük Britaniya arasında yüksəksəviyyəli siyasi dialoq iqtisadi münasibətlərin dinamik inkişafına da güclü təkan verib və bu gün Birləşmiş Krallıq ölkəmizin iqtisadiyyatına ən çox sərmayə yatıran dövlətdir. Dərin tarixi köklərə malik bu tərəfdaşlıq hələ XIX əsrin sonu - XX əsrin əvvəllərində ingilis şirkətlərinin Bakı neft sənayesinə yatırdığı böyük kapitalla başlayıb. Təsadüfi deyil ki, 1904-cü ildə Britaniya ağ neftə olan tələbatının 47 faizini məhz Bakı nefti hesabına qarşılayırdı. Müasir dövrdə bu əlaqələrin institusional əsasları daha da möhkəmlənib. Belə ki, 2016-cı ildə Baronessa Emma Nikolsonun Baş nazirin ticarət elçisi təyin olunması və 2022-ci ildə Britaniya-Azərbaycan Ticarət və Sənaye Palatasının fəaliyyətə başlaması qarşılıqlı biznes mübadilələrini yeni mərhələyə daşıyıb.

K.Bayramov bildirdi ki, ikitərəfli iqtisadi əlaqələrin lokomotivini isə neft-qaz sektoru və ölkəmizin ən böyük xarici investoru olan BP şirkəti təşkil edir: "1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanması ilə SOCAR və BP arasında qurulan uğurlu əməkdaşlıq "Azəri-Çıraq-Günəşli", "Şahdəniz", Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum və "Cənub qaz dəhlizi" kimi qlobal əhəmiyyətli enerji layihələrinin reallaşmasına imkan yaradıb. Bu strateji xəttin davamı olaraq 2017-ci ildə "Azəri-Çıraq-Günəşli" yataqlarının 2050-ci ilədək işlənilməsi, 2018-ci ildə isə Şimali Abşeron hövzəsindəki D230 blokunun birgə kəşfiyyatı üzrə imzalanan tarixi sazişlər tərəflər arasındakı yüksək etimadın bariz nümunəsidir. Bununla yanaşı, son illər əməkdaşlıq ənənəvi enerji sektorunun hüdudlarını aşaraq şəhərsalma, ərazi planlaşdırılması və memarlıq sahələrini də əhatə etməyə başlayıb. Azərbaycan Dövlət Şəhərsalma və Arxitektura Komitəsi ilə Britaniyanın müvafiq qurumları arasında "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyaları və müasir şəhər inkişafının planlaşdırılması istiqamətində əməkdaşlığın genişləndirilməsi ikitərəfli iqtisadi tərəfdaşlığın şaxələndirilməsinə mühüm töhfə verir".

Deputat əlavə etdi ki, cari il noyabrın 12-də Dublin şəhərində imzalanan Birgə Bəyannamə Azərbaycan və Böyük Britaniya münasibətlərini keyfiyyətcə yeni strateji tərəfdaşlıq səviyyəsinə yüksəldərək, iki ölkə arasında qarşılıqlı etimadın yüksək göstəricisinə çevrilir. Sənəd müdafiə və təhlükəsizlik, ticarət, investisiya, təmiz enerji keçidi, Orta dəhlizin inkişafı, eləcə də təhsil və innovasiya kimi həyati əhəmiyyətli sahələrdə uzunmüddətli və sistemli əməkdaşlığın yol xəritəsini müəyyən edir. Eyni zamanda beynəlxalq hüququn prinsiplərinə, ərazi bütövlüyünə və Cənubi Qafqazda sülh gündəliyinə verilən qətiyyətli dəstək Azərbaycanın regional və qlobal mövqelərini daha da möhkəmləndirir. İlkin Strateji Tərəfdaşlıq görüşlərinin keçirilməsi barədə razılaşma isə nəzərdə tutulan bütün təşəbbüslərin praktik icrasına və tərəfdaşlığın davamlı inkişafına etibarlı zəmanət yaradır.

Əsmər QARDAŞXANOVA,
"Azərbaycan"

Dublin görüşü Azərbaycan və Ermənistan arasında sülhün praktiki müstəvidə irəliləməsinin göstəricisidir

Lakin prosesi sona çatdırmaq üçün İrəvan öz öhdəliklərini icra etməli, məsuliyyətdən yayınmamalıdır

Cənubi Qafqaz regiondakı hər bir ölkə üçün ən vacib məsələlərdən biri bölgədə sülh və sabitliyin qorunması, sərhədlərin təhlükəsizliyi və qonşu ölkələr arasında normal iqtisadi-ticari əlaqələrin qurulmasıdır. Qarşılıqlı etimadın yaranması, bölgədə ticarətin canlanması, əməkdaşlığın genişlənməsi birbaşa regionun ümumi inkişafına xidmət edir. Məhz bu səbəbdən Azərbaycan və Ermənistan rəhbərliyi arasında hər bir təmas, atılan praktiki addımlar həm cəmiyyətlər, həm də beynəlxalq ictimaiyyət tərəfindən maraqla izlənilir.

Azərbaycan Prezidenti İlham Əliyevin noyabrın 12-də İrlandiyanın Dublin şəhərində keçirilən "Avropa Siyasi Birliyi"nin 9-cu Zirvə Toplantısı çərçivəsində Ermənistan Baş naziri Nikol Paşinyanla görüşü sülh prosesinin dinamikasını qiymətləndirmək baxımından xüsusi diqqət çəkir. Nüfuzlu beynəlxalq platforma çərçivəsində baş tutan budəfəki görüş tərəflərin dialoqu davam etdirmək və regional gündəliyi irəli aparmaq niyyətini nümayiş etdirir. Tərəflər arasında aparılan müzakirələr göstərir ki, sülh prosesi konkret infrastruktur, iqtisadi və humanitar istiqamətlər üzrə praktiki müstəviyə keçib.

Görüş zamanı liderlərin 2025-ci il avqustun 8-də keçirilmiş Vaşinqton Sülh Sammitinin nəticələrinə və həmin tədbirdə imzalanmış Vaşinqton Birgə Bəyannaməsinə əsaslanaraq sülh gündəliyinin irəlilədilməsi ətrafında fikir mübadiləsi aparması danışıqların hüquqi-siyasi bazasının qorunduğunu təsdiqləyir. Məhz bu tarixi razılaşmalar Azərbaycan və Ermənistan arasında münasibətlərin tam normallaşması üçün əsas yol xəritəsi rolunu oynayır. Vaşinqton sənədlərinə istinad edilməsi əldə olunmuş ilkin siyasi konsensusun konkret hüquqi mexanizmlərlə möhkəmləndirilməsi və yekun sülh müqaviləsinə gedən yolun sürətləndirilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Müzakirələrin gündəliyində sülhün möhkəmləndirilməsinə yönəlmiş praktiki addımların, o cümlədən nəqliyyat və tranzit əlaqələrinin inkişafı, iqtisadi-ticari münasibətlər, sərhədlərin delimitasiyası və etimad quruculuğu tədbirlərinin yer alması prosesin çoxşaxəli xarakter daşıdığını göstərir. Sərhədlərin delimitasiyası dövlətlərin suverenliyi və ərazi bütövlüyünün yerində dəqiqləşdirilməsinə xidmət edirsə, etimad quruculuğu tədbirləri uzun illərin qarşıdurmasından sonra cəmiyyətlər və qurumlar arasında normal ünsiyyət mühitinin formalaşmasına zəmin yaradır. Bu istiqamətlərin paralel şəkildə irəli aparılması sülhün kağız üzərində deyil, real həyatda dayanıqlı olmasını təmin edən əsas amillərdir.

Bu kontekstdə Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutunun (TRIPP) inkişafı istiqamətində əldə olunmuş irəliləyişlərin, xüsusilə onun dəmir yolu və avtomobil yolu hissələrinin planlaşdırılması və layihələndirilməsinin müzakirə edilməsi regional kommunikasiyaların açılması yönündə ciddi mərhələyə keçildiyini sübut edir. TRIPP marşrutu boyunca tranzit əlaqələrinin perspektivlərinin nəzərdən keçirilməsi Cənubi Qafqazın beynəlxalq nəqliyyat-logistika xəritəsində rolunu əhəmiyyətli dərəcədə artırır. Bu layihələrin reallaşması həm region ölkələrinin tranzit gəlirlərini yüksəldəcək, həm də qlobal ticarət axınlarının təhlükəsiz və sürətli şəkildə hərəkətinə töhfə verəcək.

Ötən ilin noyabr ayından etibarən Azərbaycan ərazisindən keçməklə Ermənistana və Ermənistanda ümumilikdə 105 min ton yükün daşınması faktının müsbət hal kimi qeyd olunması iqtisadi əməkdaşlığın artıq real nəticələr verdiyini göstərən ən bariz nümunədir. Yüklərin fasiləsiz və təhlükəsiz tranziti nəqliyyat dəhlizlərinin açılmasının hər iki tərəfin iqtisadi maraqlarına tam cavab verdiyini praktikada təsdiqləyir. Bu rəqəmlər qarşılıqlı iqtisadi faydanın siyasi etimadın güclənməsində və regional inteqrasiyanın dərinləşməsində nə qədər təsirli vasitə olduğunu aydın şəkildə ortaya qoyur.

Tərəflərin iqtisadi və ticari əlaqələrin daha da inkişaf etdirilməsi imkanları çərçivəsində gələcəkdə elektrik şəbəkələrinin birləşdirilməsi məsələsini müzakirə etməsi enerji təhlükəsizliyi və texniki inteqrasiya baxımından strateji əhəmiyyət daşıyır. Enerji sistemlərinin sinxronlaşdırılması və elektrik enerjisi mübadiləsi imkanları ölkələr arasında uzunmüddətli iqtisadi əməkdaşlıq körpüləri quraraq regional sabitliyə əlavə təminat yaradır. Belə infrastruktur təşəbbüsləri gələcəkdə Cənubi Qafqazda vahid və rəqabətqabiliyyətli enerji bazarının formalaşması üçün möhkəm bünövrə ola bilər.

Görüşdə ətraf mühit və transsərhəd su əməkdaşlığının əhəmiyyətinin vurğulanması, eləcə də transsərhəd çayların idarə olunması üzrə işçi qrupların yaradılmasının alqışlanması ekoloji təhlükəsizlik və təbii ehtiyatlardan səmərəli istifadə məsələlərinin də gündəliyə daxil edildiyini göstərir. Regionun su resurslarının birgə və ədalətli idarə edilməsi kənd təsərrüfatının inkişafı, əhalinin içməli su ilə təminatı və ekoloji tarazlığın qorunması üçün həyati əhəmiyyət kəsb edir. İşçi qrupların fəaliyyətə başlaması mütəxəssislər səviyyəsində mütəmadi koordinasiyanın qurulmasına və ortaq ekoloji problemlərin birgə həllinə şərait yaradır.

Nəticə etibarilə liderlərin sülh prosesində müsbət dinamikanın qorunub saxlanılması və dialoqun davam etdirilməsi barədə ortaq mövqe nümayiş etdirməsi gələcəyə nikbin baxmaq üçün əsas verir. Lakin bu prosesin dönməz xarakter alması konkret əməli addımlardan birbaşa asılıdır. Rəsmi Bakı regionda davamlı sülhün bərqərar olması, nəqliyyat-kommunikasiya xətlərinin açılması və yekun sülh müqaviləsinin imzalanması istiqamətində öz qətiyyətli mövqeyini və hazırlığını başdan nümayiş etdirib və üzərinə düşən bütün öhdəliklərə sadiq qalır. İndi əsas məsuliyyət Ermənistan tərəfinin üzərinə düşür.

Regionda tam sabitliyə nail olmaq üçün ilk növbədə İrəvan Vaşinqtondakı razılaşmaları və ikitərəfli danışıqlar çərçivəsində qəbul etdiyi öhdəlikləri ardıcıl şəkildə icra etməli, sülh gündəliyindən yayınmamalı və yekun sazişin imzalanmasını ləngidən bütün hüquqi-siyasi maneələri aradan qaldırmalıdır. Yalnız tərəflərin qarşılıqlı iradəsi və öhdəliklərin tam yerinə yetirilməsi Cənubi Qafqazı əbədi sülh, sabitlik və ortaq rifah məkanına çevirə bilər.

İsmayıl QOCAYEV,
"Azərbaycan"





Mədəniyyət





Elm xadimləri

Tanınmış dilçi alim

O, üzü gələcəyə gedir... O, çətin, əziyyətli yolun yorulmaz yolçusudur...

Üzü gələcəyə, sabaha üz tutan bu yol adamı görkəmli dilçi alim İsmayıl Məmmədlidir.

Təbiətcə yumşaq olan bu həyat adamı bir az dağlara... elə bütünlükdə torpağın dərinliklərinə işləmiş köklü-budaqlı ağaca bənzəyir. Həssaslığı, düzlüyü, təmizliyi müəllim təbiətindən irəli gəlir.

İsmayıl Oruc oğlu Məmmədli 1946-cı il noyabr ayının 15-də Basarkeçər rayonunun Sədanaxaç (sonradan kəndin adı Güney olmuşdur) kəndində Aşıq Oruc Vəli oğlu Əhmədovun və Züleyxa ananın ailəsində doğulmuşdur. Aşıq Oruc Göyçənin Yarpızlı kəndindən idi. 1948-1953-cü illərdə o vaxt könüllü köçürülmə adı ilə deportasiya olunanlarla birgə ailələri Ermənistandan Azərbaycana gəlmiş, Gədəbəy rayonunun Zəhmət kəndində məskunlaşmışdır. İsmayıl Məmmədli 1952-1956-cı illərdə Göyçənin Güney kəndində ibtidai təhsil almış, 1952-1962-ci illərdə Zəhmət kənd orta məktəbində oxumuşdur. 1962-1967-ci illərdə isə M.F.Axundov adına Azərbaycan Pedaqoji Dillər İnstitutunun Alman-Azərbaycan dilləri şöbəsində təhsil almışdır. 1967-1970-ci illərdə Azərbaycan Ensiklopediyası Baş redaksiyasında əvvəlcə transkripsiyaçı-redaktor, sonra böyük elmi redaktor vəzifələrində çalışmışdır. 1968-1969-cu illərdə ordu sıralarında hərbi xidmətdə olmuşdur. O, 1970-1973-cü illərdə Azərbaycan Elmlər Akademiyası Nəsimi adına Dilçilik İnstitutunun əyani şöbəsinin aspirantura-sında oxumuş, 1974-cü ildə filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır.

İsmayıl Məmmədli 45 ildən artıqdır ki, bütün qüvvə və bacarığını ana dilimizin tədqiqi, tədrisi və təbliği işinə, elmi və pedaqoji kadrların hazırlanmasına həsr etmişdir. Bu illər ərzində o, elmdə və ictimai həyatda şərəfli bir yol keçmişdir.

İsmayıl Məmmədli 1993-cü ildə "Azərbaycan dilinin etnoqrafik leksikası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, ictimai elmlər sahəsində, xüsusən də filologiya sahəsində müstəqil Azərbaycan Respublikasında ilk milli elmlər doktoru alimlik dərəcəsi almışdır. O, Azərbaycan dilinin leksikologiyası və leksikoqrafiyasi problemlərinin araşdırılması sahəsində çalışır. İ.Məmmədlinin "Azərbaycan dilinin izahlı lüğəti", "Azərbaycan dilinin orfoqrafiya lüğəti", "Frazeologiya və məcazlar lüğətləri"nin tərtibi işində apardığı tədqiqatları böyük elmi əhəmiyyət kəsb edir.

Alimin əsas tədqiqatları Azərbaycan dilçiliyində, eləcə də, türkologiya sahəsində mühüm və aktual olan bir problemin - sahə leksikaları içərisində qədimliyi, zənginliyi, milliliyi, məhsuldar sözyaratma və üslubi imkanları ilə seçilən etnoqrafik leksikanın öyrənilməsinə həsr olunmuşdur. O, ilk dəfə olaraq sahə leksikaları üzrə monoqrafik yolla araşdırmalar aparmış, Azərbaycan dilçiliyində ilkin və orijinal təsnifat vermiş, etnoqrafik leksika əsasında söz yaradıcılığının aparıcı mövqeyini aşkar etmiş, tematik, struktur-semantik, funksional-üslubi, sinxron, habelə etnik-kulturoloji-tarixi planda linqvistik təhlillər aparmışdır.

İ.Məmmədlinin tədqiqatları Azərbaycan dilçiliyinin üslubiyyat, lüğətçilik, onomalogiya, etnoqrafik dilçilik, şifahi dil kimi ən aktual sahələri, tətbiqi dilçilik məsələlərini əhatə edir. O, "Azərbaycan dilinin etnoqrafik leksikası" mövzusunda tədqiqat əsəri ilə Azərbaycan xalqının soykökü, qədim maddi və mənəvi mədəniyyəti, habelə ana dilimizin zəngin söz yaradıcılığı ilə bağlı problemləri dərindən araşdırmış, azərbaycanşünaslığa dəyərli bir töhfə vermiş, dilçiliyimizdə etnolinqvistika kimi yeni bir elmi istiqamət açmışdır.

Professor İ.Məmmədlinin ömür yoluna diqqət yetirdikdə gözlərimiz önündə istedadlı linqvist-alim, fədakar tədqiqatçı, sözün əsl mənasında, müdrik bir elm adamı canlanır. Çoxsaylı əsərləri İsmayıl müəllimin yüksək analitik təfəkküründən dərinliyini, ən mürəkkəb problemin həlli yollarını araşdırıb nəticəyə malik olmaq qabiliyyəti, elmi, idrakı, onun alim nüfuzunun göstəricisidir.

…İnsan yaşa dolduqca hiss edir ki, ən yaxın sirdaşı elə işıqlı xatirələrin özüdür. Bu düşüncələrin içərisində ötüb-keçən zamanın qarışıq rəngləri xəyallarında canlanır. Kimlər yaşamır bu xəyallarda? Dostlar, yaxınlar və doğmalar. Bir də əriyib gedən gənclik! Çay kimi axan zaman heç nəyə baxmadan ötüb keçir. Bunları hələ gəncliyindən dərk edən İsmayıl müəllim də öz növbəsində vaxtın haqq-hesabını düzgün aparır. Nəticə isə göz qabağındadır. Ayrı-ayrı illərdə yazdığı "Ekran, efir və dilimiz", "Azərbaycanca-rusca etnoqrafiya terminləri lüğəti", "Vurğu lüğəti", "Azərbaycanca-rusca danışıq kitabı", "Azərbaycan dilinin izahlı lüğəti", "Axtarışlar, anımlar, yozumlar", "Azərbaycan dilinin etnoqrafik leksikası", "Qəzet dilinin leksikası", VIII-IX siniflər üçün dərslik və digər əsərləri vaxtdan səmərəli istifadə etdiyinin göstəricisidir.

İ.Məmmədli 1989-cu ildən Dilçilik İnstitutunda Lüğət və terminologiya (hazırda Tətbiqi dilçilik adlanır) şöbəsinə rəhbərlik edir. Şöbə öz ənənələri ilə institutun elmi həyatında özünəməxsus yer tutur. Onun rəhbərliyi altında şöbədə "Azərbaycan dilinin izahlı lüğəti" (3 cilddə), "Yeni sözlər lüğəti", "Azərbaycan dilinin orfoqrafiya lüğəti" (təkmilləşdirilmiş, artırılmış yeni nəşri), "Azərbaycan dilinin məcazlar lüğəti" hazırlanmışdır. 2011-ci ildə nəşr olunmuş "Səməd Vurğunun bədii dilinin izahlı lüğəti" nin redaktoru, tərtibçisi olmuş, professor İ.Məmmədli 2014-cü il iyunun 10-da Səməd Vurğun mükafatına layiq görülmüşdür.

İ.Məmmədlinin şöbəyə rəhbərliyi dövründə 17 nəfər filologiya üzrə fəlsəfə doktoru, 6 nəfər elmlər doktoru dissertasiyası müdafiə etmişdir. Çoxsaylı, nəzəri problemlərlə zəngin yaradıcılığı, elmi təfəkkürü və duyumu, adi faktı elmi fikrin predmetinə çevirə bilmək qabiliyyəti, fikir və mülahizələrini inandırıcı faktlara istinadən işıqlandırması, elmi obyektə hərtərəfli orijinal yanaşma səriştəsi ədəbiyyatşünaslıqda, dilçilik sahəsində ona böyük inam, nüfuz qazandırmışdır.

Onu sözün və dilin keşiyində duran əsgərə də oxşatmaq olar. Millətin dilinin, sözünün, ruhunun sərhədlərini göz bəbəyitək qoruyan namuslu əsgərə... Onun bircə amalı var: "Həyatın gələcəyi elm öyrənənlərin əlindədir!"

İ.Məmmədli 200-dən artıq elmi əsərin və məqalənin müəllifidir. Bunlardan 13-ü monoqrafiya və lüğətlərdir. Dövri mətbuatda da bir çox elmi məqaləsi dərc olunmuşdur. Azərbaycan AMEA Xəbərlərində, "Türkologiya" jurnalında və ayrı-ayrı mətbuat səhifələrində kitabları haqqında resenziyalar, rəylər dərc olunmuşdur. Alim müasir dilçiliyin müxtəlif problemlərinə aid keçirilmiş beynəlxalq, ümumittifaq və respublika simpozium və konfranslarında məruzələrlə çıxış etmişdir.

Professor İ.Məmmədli bir çox lüğətlərin: "C.Cabbarlının dilinin lüğəti", "Azərbaycan dilinin frazeologiya lüğəti, "Azərbaycanca-ispanca", "Azərbaycanca-italyanca", "Azərbaycanca-bolqarca", "Azərbaycanca-çexcə", "Azərbaycanca-polyakca" ikidilli lüğətlərin redaktoru və tərtibçilərindəndir.



İ.Məmmədlinin Azərbaycan dilinin təbliğində də xidmətləri böyükdür. O, 1981-1989-cu illərdə Azərbaycan Teleradio Verilişləri Qapalı Qəhmdar Cəmiyyətində "Azərbaycan dili" və "Dil xalqın mənəvi sərvətidir" televiziya və radio proqramlarının aparıcısı olmuşdur.

O, 2002-ci ildən Azərbaycan Respublikası Ədliyyə Nazirliyində baş məsləhətçidir, dövlət qulluğunun kiçik müşaviridir. Hazırda Azərbaycan Milli Elmlər Akademiyasının Dilçilik üzrə Birləşmiş Müdafiə Şurasının, İnstitut Elmi Şurasının, Dilçilik üzrə Respublika Əlaqələndirmə Şurasının və Azərbaycan AMEA Terminologiya Komitəsinin üzvüdür. İ.Məmmədli Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvüdür. 2013-cü ildə Azərbaycan Prezidentinin sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif olunub, 2004-cü ildə "H.B.Zərdabi mediya mükafatı və diplomu"na layiq görülüb.

Dünyada ən uzun yol - insanın özünə qədər gəlib çıxdığı yoldur, - deyirlər. Əgər, bir insan müqəddəs sözün işığında özünə yol başlayıbsa, ona yalnız "Uğur olsun!" demək lazımdır.

Yolçu yolda gərək, İsmayıl müəllim!

Fizuli MUSTAFAYEV,
AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun baş elmi işçisi, filologiya elmləri doktoru

"Şəhərsalma və Memarlıq İli - 2026"

Azərbaycanda şəhərsalma - zəngin keçmiş, modern müasirlik, texnoloji gələcək

Memarlıq bir xalqın milli kimliyini, estetik düşüncəsini, tarixi yaddaşını yaşadan, şəhərsalma isə onun gələcək həyatını müəyyənləşdirən mühüm sahələrdəndir. Qurulan şəhərlər, salınan küçələr, ucaldılan binalar yalnız dövrün ehtiyaclarını deyil, həm də cəmiyyətin inkişaf səviyyəsini, dünyagörüşünü və gələcəyə baxışını əks etdirir.

Memarlıq bir xalqın milli kimliyini, estetik düşüncəsini, tarixi yaddaşını yaşadan, şəhərsalma isə onun gələcək həyatını müəyyənləşdirən mühüm sahələrdəndir. Qurulan şəhərlər, salınan küçələr, ucaldılan binalar yalnız dövrün ehtiyaclarını deyil, həm də cəmiyyətin inkişaf səviyyəsini, dünyagörüşünü və gələcəyə baxışını əks etdirir.

Bu baxımdan Azərbaycanın çoxəsrlik şəhərsalma ənənələri ilə müasir inkişaf hədəflərinin vəhdəti xüsusi əhəmiyyət daşıyır. Ölkəmizdə həyata keçirilən genişmiqyaslı quruculuq layihələri, tarixi-memarlıq abidələrinin qorunması, yeni yaşayış məkanlarının yaradılması və şəhər mühitinin yenilənməsi məhz belə bir strateji yanaşmanın təzahürüdür.

Prezident İlham Əliyevin sərəncamı ilə 2026-cı ilin ölkəmizdə "Şəhərsalma və Memarlıq İli" elan edilməsi mühüm tarixi və ictimai əhəmiyyət daşıyır. Dövlətimizin başçısının bu qərarı Azərbaycanın zəngin memarlıq irsinin qorunması, milli şəhərsalma məktəbinin inkişaf etdirilməsi, müasir dünyanın çağırışlarına uyğun qabaqcıl yanaşmaların tətbiqi baxımından yeni mərhələnin başlanğıcıdır. Eyni zamanda, bu təşəbbüs şəhər və kəndlərimizin simasının yenilənməsinə, paytaxtla regionlar arasında balanslı inkişafın təmin edilməsinə, insanlara daha rahat, təhlükəsiz və sağlam yaşayış mühitinin yaradılmasına yönəlmiş dövlət siyasətinin prioritetlərini bir daha ortaya qoyur.

Azərbaycanın şəhərsalma tarixi xalqımızın dövlətçilik və mədəniyyət salnaməsinin ayrılmaz hissəsidir. İpək yolunun üzərində yerləşən qədim şəhərlərimiz əsrlər boyu Şərq və Qərb arasında iqtisadi və mədəni əlaqələrin inkişafında mühüm rol oynayıb. Şamaxı, Gəncə, Naxçıvan, Şəki, Təbriz və digər qədim şəhərlərimizdə formalaşan memarlıq ənənələri milli sənətkarlığın, estetik düşüncənin və şəhərsalma mədəniyyətinin zənginliyini nümayiş etdirir. Əcəmi Naxçıvaninin yaratdığı memarlıq məktəbi, Məminə xatun türbəsi, Xudafərin körpüləri, "Atəşgah", İçərişəhər, Şirvanşahlar Sarayı Kompleksi, Qız qalası və Şəkinin tarixi mərkəzi bu irsin dünya miqyasında tanınan nümunələridir. UNESCO-nun Dünya İrs Siyahısına daxil edilmiş abidələrimiz milli memarlıq sənətinin bəşər mədəniyyətinə bəxş etdiyi qiymətli töhfələrdir.

XIX əsrdən başlayaraq, sənaye mərkəzinə çevrilən Bakının memarlıq simasında da mühüm dəyişikliklər baş verdi. Şərq və Avropa memarlıq üslublarının qovuşması nəticəsində paytaxtımız özünəməxsus şəhərsalma görkəmi qazandı. XX əsrdə milli memarlıq ənənələrinin müasir tikinti prinsipləri ilə uzlaşdırılmasında Mikayıl Hüseynov və Sadıq Dadaşov kimi görkəmli memarların xidmətləri xüsusi qeyd edilməlidir. Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi dövründə isə tarixi şəhər mühitinin qorunması, memarlıq abidələrinin bərpası və milli memarlıq irsinin yaşadılması istiqamətində mühüm qərarlar qəbul edildi. Bu siyasət müstəqillik illərində də davam etdirilərək yeni məzmun və miqyas qazandı.

Bu gün Bakının memarlıq siması tarixi irslə müasirliyin vəhdətində formalaşır. İçərişəhərin qədim qala divarlarından Heydər Əliyev Mərkəzinədək, XIX əsrin memarlıq nümunələrindən "Alov qüllələri"nədək paytaxtın çoxqatlı inkişaf tarixini əks etdirir. Dənizkənarı bulvarın genişləndirilməsi, yeni parkların salınması, ictimai məkanların abadlaşdırılması, sənaye tullantıları ilə çirklənmiş ərazilərin müasir yaşayış və biznes zonalarına çevrilməsi şəhər mühitinin keyfiyyətcə dəyişməsinə xidmət edir. Vaxtilə "Qara şəhər" kimi tanınan ərazidə "Ağ şəhər"in salınması ekoloji bərpa və müasir şəhərsalmanın uğurlu nümunələrindəndir.



Paytaxtın gələcək inkişafı isə 2040-cı ilədək Bakı şəhərinin Baş planı əsasında müəyyənləşdirilib. Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin koordinasiyası ilə hazırlanan və 2023-cü il dekabrın 30-da təsdiq edilən bu strateji sənəd paytaxtın daha balanslı, dayanıqlı və çoxmərkəzli şəhərə çevrilməsini nəzərdə tutur. Baş planın əsas istiqamətləri tarixi-memarlıq irsinin qorunması, nəqliyyat və sosial infrastrukturun təkmilləşdirilməsi, ekoloji vəziyyətin yaxşılaşdırılması, yaşıllıq sahələrinin genişləndirilməsidir. Sənəddə nəqliyyat sıxlığının azaldılması, metro və dəmir yolu şəbəkələrinin genişləndirilməsi, ictimai nəqliyyatın inkişafı, velosiped yollarının yaradılması, piyada hərəkəti üçün əlverişli məkanların artırılması kimi məsələlər xüsusi yer tutur. "Hibrid Yaşıl Dəhlizlər" konsepsiyası isə şəhərin müxtəlif ərazilərini yaşıllıq məkanları ilə əlaqələndirməklə həm ekoloji tarazlığın qorunmasına, həm də insanların istirahət imkanlarının genişləndirilməsinə xidmət edir. Bu yanaşma Bakının gələcək inkişafında ekoloji amillərin və insan rahatlığının əsas meyarlardan biri olacağını göstərir.

Şəhərsalma siyasətinin mühüm istiqamətlərindən biri də paytaxtla regionların inkişafı arasında tarazlığın təmin edilməsidir. Bu gün Azərbaycanın şəhər və rayonlarında infrastrukturun yenilənməsi, yolların, məktəblərin, xəstəxanaların, sosial obyektlərin tikintisi, yeni yaşayış məhəllələrinin salınması geniş vüsət alıb. Regionların iqtisadi potensialının gücləndirilməsi, müasir xidmət və istehsal sahələrinin yaradılması insanların yaşadıqları ərazilərdə rahat həyat sürməsinə, məşğulluq imkanlarının artmasına və daxili miqrasiyanın tarazlaşdırılmasına xidmət edir.

44 günlük Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərdə başlanılan genişmiqyaslı bərpa və quruculuq işləri Azərbaycan şəhərsalma tarixində tamamilə yeni mərhələ açıb. Qarabağ və Şərqi Zəngəzurda şəhər və kəndlərin müasir planlaşdırma prinsipləri əsasında yenidən qurulması, "yaşıl enerji" həllərinin tətbiqi, ekoloji tarazlığın qorunması və müasir infrastrukturun yaradılması dövlətin gələcəyə hesablanmış inkişaf strategiyasının mühüm istiqamətidir. Şuşanın tarixi-memarlıq görkəminin bərpası, Ağdamın müasir şəhərsalma prinsipləri ilə yenidən qurulması, Füzuli, Zəngilan, Cəbrayıl, Laçın və digər yaşayış məntəqələrində həyata keçirilən layihələr bu siyasətin miqyasını aydın nümayiş etdirir. Burada əsas məqsəd təkcə dağıdılmış şəhər və kəndləri bərpa etmək deyil, həm də insanların doğma yurdlarında təhlükəsiz, müasir və firavan həyatını təmin etməkdir.

2026-cı ilin "Şəhərsalma və Memarlıq İli" elan edilməsi Azərbaycanın bu sahədə qazandığı təcrübənin beynəlxalq müstəvidə təqdim olunması baxımından da yeni imkanlar yaradıb. Mayın 17-22-də Bakıda BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) təşəbbüsü ilə keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası - WUF13 bunun mühüm nümunəsi oldu. 182 ölkədən 45 mindən çox iştirakçının qeydiyyatdan keçdiyi forum Azərbaycanın şəhərsalma və dayanıqlı inkişaf sahəsində beynəlxalq əməkdaşlığa verdiyi əhəmiyyəti nümayiş etdirdi. Forumun açılış mərasimində Prezident İlham Əliyev çıxış edərək ölkəmizin qədim şəhərsalma ənənələrindən, Bakının Şərq və Qərb memarlığını özündə birləşdirən simasından, son illər həyata keçirilən yenilənmə və quruculuq layihələrindən danışdı. Dövlətimizin başçısı vurğuladı ki, ölkəmizdə şəhərsalma və şəhər inkişafına verilən önəmin əsas məqsədi insanların həyat şəraitini yaxşılaşdırmaq, onlara rahat yaşayış üçün zəruri imkanlar yaratmaqdır. Prezidentin Bakının tarixi İçərişəhəri ilə müasir bulvarın yanaşı mövcudluğunu nümunə göstərməsi paytaxtın memarlıq müxtəlifliyini və özünəməxsus inkişaf yolunu aydın ifadə edirdi.

Bu il noyabrın 4-də Bakı-Ekspo Mərkəzində keçirilən "AIREX 2026" - Birinci Azərbaycan Beynəlxalq Daşınmaz Əmlak Sərgisi də şəhərsalma və memarlıq sahəsindəki inkişafın mühüm təqdimat meydanına çevrildi. Prezident İlham Əliyevin və Birinci xanım Mehriban Əliyevanın sərgi ilə tanışlığı bu sahələrin inkişafına göstərilən diqqətin növbəti nümunəsi oldu. "PASHA Property Management" şirkətinin təşkilatçılığı ilə keçirilən sərgidə 47 yerli və 14 xarici şirkət olmaqla ümumilikdə 61 şirkət iştirak edir. Burada daşınmaz əmlak, müasir tikinti texnologiyaları, memarlıq həlləri, investisiya imkanları və yeni yaşayış layihələri təqdim olunur. Sərgi həmçinin yerli və xarici şirkətlər arasında təcrübə mübadiləsinin genişləndirilməsi, yeni tərəfdaşlıqların qurulması və investisiyaların cəlb edilməsi baxımından mühüm əhəmiyyət daşıyır.

Beləliklə, "Şəhərsalma və Memarlıq İli" çərçivəsində həyata keçirilən tədbirlər və layihələr bir daha göstərir ki, Azərbaycanda bu sahəyə yanaşma yalnız tikinti və abadlıq işləri ilə məhdudlaşmır, həmçinin tarixi irsin qorunması, müasir texnologiyaların tətbiqi, ekoloji tarazlığın təmin edilməsi, sosial infrastrukturun inkişafı və insan amilinin ön plana çəkilməsi vahid strategiyanın əsasını təşkil edir.

Şəhərin əsl dəyəri onun insanlara yaratdığı həyat şəraiti, qoruduğu tarixi yaddaş və gələcəyə verdiyi imkanlarla ölçülür. Azərbaycanın şəhərsalma siyasətinin əsas məzmunu da məhz bu prinsiplərdə ifadə olunur - qədim memarlıq irsimizi yaşadaraq müasir dünyanın tələblərinə cavab verən şəhərlər qurmaq, paytaxtın və regionların inkişafını uzlaşdırmaq, gələcək nəsillərə sağlam, təhlükəsiz və estetik yaşayış mühiti miras qoymaq. Bu gün Azərbaycan şəhərsalma və memarlıq sahəsində öz tarixi təcrübəsinə söykənərək yeni inkişaf mərhələsinə qədəm qoyur. Bakıdan Qarabağa, Şərqi Zəngəzurdan ölkəmizin digər bölgələrinə qədər uzanan quruculuq yolu milli memarlıq ənənələrinin müasir düşüncə ilə qovuşmasının ifadəsidir. Bu yolun başlıca məqsədi keçmişin zəngin irsini qorumaqla gələcəyin müasir, dayanıqlı Azərbaycanını qurmaqdır.

Elşən QƏNİYEV,
"Azərbaycan"

Azərbaycanlı opera müğənnisi beynəlxalq müsabiqənin qalibi olub



Azərbaycanlı opera müğənnisi, tenor Emin İsmayılov ABŞ-nin Nyu York şəhərində yerləşən məşhur "Carnegie Hall" konsert zalında keçirilən beynəlxalq musiqi müsabiqəsində birinci yerə layiq görülüb. İfaçı müsabiqə çərçivəsində Azərbaycan professional bəstəkarlıq məktəbinin görkəmli nümayəndəsi Fikrət Əmirovun "Sevil" operasından Balaşın ariyasını təqdim edib.

Emin İsmayılov açıqlamasında bildirib ki, Azərbaycan opera sənətinin incilərindən olan bu əsərin "Carnegie Hall" səhnəsində səsləndirilməsi xüsusi əhəmiyyət daşıyıb. Bu uğur milli opera ənənələrimizin təbliğinə və Azərbaycan musiqi irsinin beynəlxalq auditoriyaya tanıdılmasına xidmət edir.

"1998-ci ildə Bakıda anadan olmuşam və musiqi təhsilimə də Azərbaycanda başlamışam. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasını bitirmişəm, 2021-ci ildən isə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının dəvətli solisti kimi fəaliyyət göstərirəm. Repertuarıma dünya opera klassikasının tanınmış əsərləri daxildir. Hazırda ABŞ-də "Longy School of Music of Bard College"də vokal sənəti üzrə təhsilimi davam etdirirəm. Beynəlxalq səhnələrdə Azərbaycan musiqisini və mədəniyyətini təmsil etmək əsas yaradıcılıq məqsədlərimdən biridir. Bu qələbə sənət yolumda mühüm uğur olmaqla yanaşı, Azərbaycan opera sənətinin beynəlxalq miqyasda tanıdılması baxımından da əlamətdar hadisədir", - deyə ifaçı əlavə edib.

Azərbaycan rəssamının kuklaları "Doll Prague-2026" sərgisində nümayiş etdirilib

Avropanın ən böyük dizayner kukla sərgilərindən biri olan "Doll Prague-2026" Praqada 25 ölkədən 147 rəssamı bir araya gətirib. Sərgidə Azərbaycan Rəssamlar İttifaqının üzvü, rəssam Vəfa Aşumovanın əsərləri də nümayiş etdirilib.



Rəssamın verdiyi məlumata görə, onun "Doll Prague-2026" sərgisində iştirakı 8 Noyabr - Zəfər Gününün altıncı ildönümünə həsr olunub.

V.Aşumova sərgiyə üç kukla təqdim edib. "Atəş" kuklası daxili gücün, ehtirasın və canlılığın rəmzidir. "Züleyxa", rəssam özü dediyi kimi, səssiz sevgi melodiyasıdır. "Gülüm" kuklası incəliyi, gözəlliyi və xoşbəxtliyin kövrəkliyini təcəssüm etdirir, məsuliyyəti, yaxınlarınızı əzizləmək və geri qaytarılmayan anları qiymətləndirmək ehtiyacını xatırladır.

14 Noyabr Dünya Diabetlə Mübarizə Günüdür

Orqanizmi səssiz zədələyən "şirinlik"

Gəncləşən diabet artıq uşaqları da hədələyir

Dünyada geniş yayılan xroniki xəstəliklərdən biri olan şəkərli diabet müasir dövrün ən ciddi səhiyyə problemləri sırasında yer alır. Hər il noyabrın 14-də qeyd olunan Ümumdünya Diabet Günü bu xəstəliyin yaratdığı təhlükələrə diqqət çəkmək, əhalini erkən diaqnostika və profilaktika barədə maarifləndirmək məqsədi daşıyır. Beynəlxalq Diabet Federasiyasının məlumatına görə, dünyada yüz milyonlarla insan diabetlə yaşayır və onların əhəmiyyətli hissəsi xəstəliyindən xəbərsizdir. Əvvəllər daha çox yaşlı insanlarda rast gəlinən ikinci tip diabetin son illərdə gənclər və uşaqlar arasında da yayılması narahatlıq doğurur.



Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-endokrinoloq Tural İbrahimov deyir ki, şəkərli diabet qanda qlükozanın miqdarının yüksəlməsi ilə xarakterizə olunan, gözləri, ürəyi, böyrəkləri, qaraciyəri və ümumilikdə orqanizmin müxtəlif sistemlərini zədələyə bilən xroniki metabolik xəstəlikdir: "Şəkərli diabetin bir neçə tipi mövcuddur. Lakin ən geniş yayılan formaları birinci və ikinci tip diabetdir. Birinci tip diabetə daha çox uşaqlarda, yeniyetmələrdə və 30 yaşdan aşağı şəxslərdə rast gəlinir. Bununla belə, xəstəlik istənilən yaşda yarana bilər. Bu tip diabetin əsas səbəbi autoimmun proseslərdir. Belə ki, immun sistemi mədəaltı vəzinin insulin istehsal edən hüceyrələrini zədələyir və nəticədə orqanizmdə insulin çatışmazlığı yaranır. İkinci tip diabet isə daha çox orta və yuxarı yaş qruplarında müşahidə olunur".

İkinci tip diabetin xüsusilə artıq çəkisi və piylənməsi olan insanlarda aşkarlandığını deyən mütəxəssis qeyd edir ki, xəstəliyin yayılmasının sürətlənməsində gündəlik qidalanma vərdişləri və həyat tərzi mühüm rol oynayır: "Son dövrlər ikinci tip diabet hallarının artmasının əsas səbəblərindən biri insanların qida rasionunda fastfud məhsullarının, hazır şirniyyatların, şəkərlə zəngin içkilərin və yüksək kalorili qidaların geniş yer tutmasıdır. Bununla yanaşı, hərəkətsiz həyat tərzi, uzun müddət oturaq vəziyyətdə qalmaq və fiziki aktivliyin azalması da diabet riskini yüksəldir. Streslə əlaqəli həyat tərzi dəyişiklikləri, eləcə də bəzi psixotrop dərmanların istifadəsi nəticəsində iştahanın və bədən çəkisinin artması da risk amilləri sırasında qeyd edilə bilər. Bundan başqa, müxtəlif xəstəliklərin müalicəsində istifadə olunan bəzi dərman preparatları qanda şəkərin miqdarına təsir göstərir. Buna misal olaraq COVID-19-un müəyyən ağır hallarında, həmçinin revmatoloji və digər iltihabi xəstəliklərin müalicəsində istifadə edilən steroid preparatlarını göstərmək olar. Bu dərmanlar xüsusilə uzun müddət və ya yüksək dozada istifadə edildikdə qanda qlükozanın yüksəlməsinə səbəb ola, diabetə meyilli insanlarda xəstəliyin üzə çıxmasını sürətləndirə bilər".

Tural İbrahimovun sözlərinə görə, şəkərli diabetin vaxtında aşkarlanmasını çətinləşdirən əsas məqamlardan biri xəstəliyin uzun müddət gizli inkişaf etməsidir: "Xüsusilə ikinci tip diabetdə qlükozanın miqdarı zamanla, mərhələli şəkildə yüksəlir. Bu proses tədricən baş verdiyindən insan uzun müddət heç bir ciddi narahatlıq hiss etməyə bilər. Ancaq hər hansı bir infeksion xəstəlik və ya stres halı yarandıqda qanda şəkər miqdarında çox yüksəlmə olur, şəkərli diabet aşkarlanır", - deyən həkim onu da vurğulayır ki, şəkərli diabetin üç əsas klassik əlaməti mövcuddur. Bunlar polidipsiya, poliuriya və polifagiya adlanır: "Polidipsiya həddindən artıq susuzluq hissi və çoxlu su içmək, poliuriya tez-tez sidiyə getmək, polifagiya isə iştahanın artması və davamlı aclıq hissi ilə xarakterizə olunur. Bu üç əlamət şəkərli diabet üçün xarakterik hesab edilsə də, xəstəliyin ilkin xəbərdarlıq siqnalları yalnız bunlarla məhdudlaşmır. Bəzi insanlarda yeməkdən sonra güclü halsızlıq, yuxululuq, gün ərzində davamlı yorğunluq, bədən çəkisində dəyişikliklər müşahidə oluna bilər. Digər tərəfdən, nəzarətsiz yüksək qan şəkəri zamanı orqanizm enerji əldə etmək üçün yağ və əzələ toxumasından istifadə etməyə başlayır. Nəticədə əzələ kütləsinin azalması, qol və ayaqlarda arıqlama, ümumi zəiflik yarana bilər. Bəzi xəstələrdə səbəbsiz çəki itkisi də müşahidə edilir. Sadalanan əlamətlər başqa xəstəliklərdə də rast gəlindiyindən yalnız şikayətlər əsasında diabet diaqnozu qoymaq düzgün deyil. Ona görə də bu əlamətlər meydana çıxdıqda mütləq həkimə müraciət etmək və qanda qlükozanın səviyyəsini yoxlatmaq lazımdır".

Mütəxəssis insulin rezistentliyi və prediabetin vaxtında müalicə olunmasa, şəkərli diabetə çevriləcəyini diqqətə çatdırır: "İkinci tip diabetin inkişaf prosesini sadələşdirilmiş şəkildə üç mərhələyə bölmək olar. Birinci mərhələ insulin rezistentliyi, ikinci mərhələ prediabet, yəni xalq arasında deyildiyi kimi, gizli şəkər, üçüncü mərhələ isə artıq aşkar şəkərli diabetdir. İlkin dövrdə qidalanma pozğunluqları, fiziki aktivliyin azalması, streslə əlaqəli davranış dəyişiklikləri və digər amillərin təsiri ilə bədən çəkisi arta bilər. Çəkinin artması nəticəsində enerji mənbəyi olaraq qanda şəkərin miqdarı artır və bu şəkəri nəzarətdə saxlamaq üçün qanda insulinin də miqdarı artır, bu zaman insulin rezistentlik yaranır. Zamanla mədəaltə vəzidən ifraz olunan insulinin gücü çatmır və nəticədə qanda şəkərin miqdarı xüsusilə yeməkdən sonralar artmağa başlayır".

Tural İbrahimov əlavə edir ki, bu mərhələdə həkim müayinəsi zamanı qanda şəkərin səviyyəsi və "HbA1c" göstəricisi qiymətləndirilir: "O, son iki-üç ay ərzində qanda qlükozanın orta səviyyəsi haqqında məlumat verən mühüm laborator göstəricidir. Əgər "HbA1c" göstəricisi 5,7-6,4 faiz arasında müəyyən edilirsə, bu, prediabetə uyğun hesab olunur. Prediabet artıq orqanizmdə karbohidrat mübadiləsinin pozulduğunu və gələcəkdə ikinci tip diabetin yaranma riskinin yüksəldiyini göstərir. Lakin bu mərhələdə xəstəliyin inkişafı qaçılmaz deyil. Vaxtında həkimə müraciət etmək, düzgün qidalanma rejiminə keçmək, artıq çəkini azaltmaq, fiziki aktivliyi artırmaq və zəruri hallarda müalicə almaqla diabetin yaranma ehtimalını əhəmiyyətli dərəcədə azaltmaq mümkündür".

Müasir tibbin inkişafının şəkərli diabetin vaxtında aşkar olunması və müalicəsində yeni imkanlar yaratdığını deyən mütəxəssisin sözlərinə görə, xüsusilə birinci tip diabetin klinik əlamətlər meydana çıxmazdan əvvəl müəyyənləşdirilməsi istiqamətində mühüm irəliləyişlər əldə olunub. "Anti-GAD", "IA-2", "ZnT8" və insulinə qarşı autoanticisimlərin yoxlanılması nəticəsində immun sisteminin mədəaltı vəzinin insulin istehsal edən hüceyrələrinə qarşı reaksiyası klinik diabetin yaranmasından illər əvvəl aşkarlana bilər. Bu testlər yeni deyil, yenilik onların sistemli skrininq və erkən müdaxilə üçün istifadəsinin genişlənməsidir. Belə müayinələr xüsusilə birinci tip diabetli şəxslərin yaxın qohumları və digər yüksək risk qrupları üçün əhəmiyyət daşıyır. İnsulin müalicəsində diqqətçəkən yeniliklərdən biri də gündəlik tətbiq edilən bəzi bazal insulin preparatlarına alternativ olaraq həftədə bir dəfə istifadə üçün nəzərdə tutulan uzunmüddətli təsirə malik insulinlərin hazırlanmasıdır. Bu istiqamətdə aparılan tədqiqatlar və əldə olunan nəticələr müəyyən xəstə qrupları üçün müalicənin daha rahat təşkilinə imkan yaradır".

Tural İbrahimovun qənaətinə görə, gələcək üçün böyük ümidlər vəd edən istiqamətlərdən biri də kök hüceyrə texnologiyalarının diabetin müalicəsində tətbiqidir: "Məqsəd orqanizmdə insulin istehsalını bərpa etmək və xəstələrin xaricdən insulin qəbuluna ehtiyacını azaltmaq, mümkün olduqda isə aradan qaldırmaqdır. Bu sahədə ümidverici nəticələr əldə olunsa da, kök hüceyrə müalicəsi hələ geniş tətbiq olunan və birinci tip diabetin tam sağalmasına zəmanət verən standart müalicə üsulu deyil. Bunun üçün əlavə klinik tədqiqatlara, uzunmüddətli təhlükəsizlik və effektivlik nəticələrinə ehtiyac var. Müasir diabet müalicəsində əsas yanaşma da əhəmiyyətli dərəcədə dəyişib. Əvvəllər diabetdə əsas məqsəd qanda qlükozanın səviyyəsini aşağı salmaq və onu normal hədlərdə saxlamaq idi. Hazırda isə müalicəyə daha kompleks yanaşılır. Artıq yalnız şəkəri azaltmaq deyil, eyni zamanda ürəyi, böyrəkləri, gözləri, qaraciyəri və damar sistemini qorumaq da əsas hədəflər sırasındadır".

Ülkər XASPOLADOVA,
"Azərbaycan"

ADY 10 ayda yük daşımaları üzrə yüksək göstəricilər əldə edib

Azərbaycan Dəmir Yollarından (ADY) verilən məlumata görə, 2026-cı ilin yanvar-oktyabr aylarında ADY tərəfindən 15 milyon 691 min ton yük daşınıb. Bu, ötən ilin müvafiq dövründə qeydə alınmış 13 milyon 911 min tonla müqayisədə 13 faiz çoxdur. Təkcə oktyabr ayında yükdaşımaların həcmi 1 milyon 714 min tona çataraq keçən ilin eyni ayına nisbətən 22 faiz artıb.

Tranzit yükdaşımalarında da müsbət dinamika müşahidə olunub. Yanvar-oktyabr aylarında tranzit daşımaların həcmi 6 milyon 582 min ton təşkil edib ki, bu da illik müqayisədə 20 faiz artım deməkdir. Oktyabr ayında isə 817 min ton tranzit yük daşınıb. Bu göstərici ötən ilin eyni ayı ilə müqayisədə 49 faiz yüksəkdir.

Konteyner daşımalarında da artım qeydə alınıb. Cari ilin 10 ayında ADY tərəfindən 132500 TEU konteyner daşınıb. Bu, ötən ilin müvafiq dövründəki 112400 TEU ilə müqayisədə 18 faiz artım deməkdir. Oktyabr ayında isə konteyner daşımalarının həcmi 16200 TEU təşkil edərək keçən ilin eyni dövrünə nisbətən 67 faiz artıb.

Çin istiqamətindən blok-qatarların qəbulunda da əhəmiyyətli artım əldə olunub. Belə ki, ilin 10 ayında Çindən 472 blok-qatar qəbul edildiyi halda, bu göstərici ötən ilin müvafiq dövrü ilə müqayisədə 49 faiz çoxdur.

Astara Terminalında həm oktyabr üzrə aylıq, həm də 10 aylıq yükaşırma göstəricilərində ən yüksək nəticələr əldə edilib. Cari ilin yanvar-oktyabr aylarında terminalda 753 614 ton yük aşırılıb. Bu, ötən ilin eyni dövründəki 550 210 tonla müqayisədə 37 faiz artım deməkdir. Oktyabr ayında isə terminalda 122 216 ton yük aşırılaraq aylıq ən yüksək nəticə müəyyən edilib. Bu göstərici keçən ilin oktyabr ayına nisbətən 65 faiz çoxdur.

Bakı Beynəlxalq Dəniz Limanında da tarixi maksimum nəticə əldə olunub - 10 ay ərzində limanda 112 min TEU-dan çox konteyner aşırılıb ki, bu da limanda konteyner aşırmaları üzrə indiyədək qeydə alınmış ən yüksək göstəricidir. Konteyner aşırılmasının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 31 faiz artıb.

Əldə olunan nəticələr Azərbaycanın beynəlxalq nəqliyyat dəhlizlərində mövqeyinin güclənməsi, tranzit imkanlarının genişlənməsi və ölkənin nəqliyyat-logistika infrastrukturundan istifadənin artması baxımından mühüm əhəmiyyət daşıyır.

Rüstəm KAMAL,
"Azərbaycan"

Fransa etirazları susdurmaq üçün antiterror tədbirlərinə əl atır

"Azadlıq, bərabərlik, qardaşlıq" şüarını dünyaya bəyan edən Fransada bu gün küçələr yenidən qaynar qazanı xatırladır. Bahalaşmaya, təhsil sistemindəki çatışmazlıqlara və polis zorakılığına etiraz edən yüz minlərlə insan meydanlara axışır. Lakin son ayların aksiyaları kütləviliyi ilə yanaşı, Parisin etirazçılara qarşı tətbiq etdiyi yeni və mübahisəli nəzarət sistemi ilə diqqət çəkir. İndi rəsmi Paris narazı səsləri susdurmaq üçün antiterror qanunvericiliyini işə salıb.



2015-ci ilin noyabrında Parisdə törədilən qanlı terror aktlarından sonra ölkədə fövqəladə vəziyyət elan edilmiş və təhlükəsizlik qüvvələrinə geniş səlahiyyətlər verilmişdi. Həmin dövrün mirası olan və "MICAS" adlanan inzibati nəzarət sistemi, əslində, terrorçuluqda şübhəli bilinən şəxslərin qarşısını almaq üçün nəzərdə tutulmuşdu. Bu qanun Daxili İşlər Nazirliyinə məhkəmə qərarı olmadan belə, "ciddi təhlükəsizlik riski" yaradan şəxslərin hərəkət azadlığını məhdudlaşdırmaq imkanı verir. Lakin bu gün həmin qanunların hədəfində tələbələr, fəallar və ekoloqlar dayanır. Heç bir məhkumluğu olmayan, terrorizmlə yaxından-uzaqdan əlaqəsi təsdiqlənməyən onlarla vətəndaş sadəcə nümayişlərdə iştirak etməsin deyə gündə bir neçə dəfə polis bölməsinə gedib qeydiyyatdan keçməyə məcbur edilir. Qaydanı pozanları isə 3 il həbs və 45 min avro cərimə gözləyir. 2024-cü il Paris Olimpiadası zamanı təhlükəsizlik bəhanəsi ilə 500-dən çox insanı ev dustaqlığına məhkum edən hökumət, görünür, bu "rahat" üsuldan siyasi etirazları boğmaq üçün də yararlanmağa qərar verib.

Hüquqşünaslar və vətəndaş cəmiyyəti təmsilçiləri bu addımı açıq şəkildə hakimiyyətdən sui-istifadə və qanunların təhrif edilməsi adlandırırlar. Vəkil Jan-Batist Sufronun vurğuladığı kimi, qərarlar aksiyalara saatlar qalmış verilir ki, məhkəmələr onlara vaxtında baxa bilməsin. Daxili işlər naziri Loran Nunyes 100-dən çox belə qərar imzaladığını və hədəfdə "xüsusi təhlükəli şəxslərin" olduğunu iddia etsə də, "Le Canard enchaine" nəşri bu iddianı alt-üst edib. Məlum olub ki, siyahıdakıların böyük əksəriyyəti kəşfiyyatın maraq dairəsində belə olmayan şəxslərdir.

Ən maraqlısı isə budur ki, bu prosesdə hüquq-mühafizə orqanlarının kəşfiyyat məlumatlarından daha çox siyasi iradə rol oynayıb. Təşəbbüsün müəllifi kimi ədliyyə naziri Jerald Darmanenin adı hallanır. Vaxtilə ekoloji fəallara "ekoterrorçu" damğası vuran nazir indi də sosial etirazları "üsyan" və "terror təhdidi" kimi təqdim etməyə çalışır. Lakin Paris məhkəməsinin müstəqil hakimi hökumətin bu məntiqini rədd edərək bildirib ki, hakimiyyətə qarşı yönələn hər bir siyasi qəzəb terror aktı sayıla bilməz.

Görünən odur ki, büdcə kəsiri və sosial gərginlik qarşısında aciz qalan Fransa hökuməti panikaya düşərək əlindəki bütün inzibati vasitələrə əl atır. Təkcə üç həftə ərzində aksiyalarda 6800-dən çox insanın saxlanılması və onların 86 faizinin məktəblilər olması vəziyyətin ciddiliyindən xəbər verir. İnsan Haqları Liqasının təmsilçilərinin dediyi kimi, bu mənzərə ölkədə artıq "daimi fövqəladə vəziyyətin" hökm sürdüyünü göstərir. Siyasi müxalifəti və sosial etirazları "terror" anlayışı ilə eyniləşdirmək isə sadəcə vətəndaşların sərbəst toplaşmaq azadlığını əlindən almır, həm də həqiqi terror təhlükəsi ilə mübarizənin mahiyyətini ucuzlaşdırır.

Təhminə VERDİYEVA,
"Azərbaycan"

İdman

Dakar-2026: Azərbaycan komandası medal sıralamasında bir pillə irəliləyib



Seneqalın paytaxtı Dakarda təşkil olunan Yeniyetmələrin IV Yay Olimpiya Oyunlarında 13-cü yarış günü başa çatıb. Milli Olimpiya Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, günü bir gümüş medalla başa vuran Azərbaycan komandası ümumi medal sıralamasında mövqeyini yaxşılaşdıraraq bir pillə irəliləyib. Hazırda yığmamız 3 qızıl və 3 gümüş medalla 11-ci yerdə qərarlaşıb.

Medal sıralamasına 32 medalla (17 qızıl, 8 gümüş, 7 bürünc) Çin başçılıq edir. Gün ərzində medal qazana bilməyən Yaponiya komandası 9 qızıl, 8 gümüş və 9 bürünc medalla ikinci, Rusiya yığması isə 8 qızıl, 4 gümüş və 2 bürünc medalla üçüncü pillədə yer alıb. Misir 12 (6 qızıl, 1 gümüş, 5 bürünc) medalla dördüncü, Efiopiya komandası isə 8 (5 qızıl, 3 gümüş) medalla beşinci sıradadır.

Yarışların başa çatmasına cəmi bir gün qalmış medal qazanan ölkələrin sayı 98-ə yüksəlib. Onlardan 79-u qızıl medal əldə edib.

Xatırladaq ki, Azərbaycan komandasına qızıl medalları cüdoçu İbrahim Talıbov (-55 kiloqram), eləcə də çimərlik güləşçiləri Tunar Quliyev (70 kiloqram) və Elgün Kərimli (90 kiloqram) qazandırıb. Çimərlik güləşində Nihad Süleymanlı (80 kiloqram), taekvondoda Adil Kazımlı (-73 kiloqram) və boksda Gülər Hüseynova (51 kiloqram) isə gümüş medala yiyələnib.

Dakar-2026 Yeniyetmələrin IV Yay Olimpiya Oyunlarına noyabrın 13-də yekun vurulacaq.

Azərbaycan kikboksçusu 13-cü dəfə Avropa çempionu olub



Azərbaycan kikboksçusu Eduard Məmmədov Şimali Makedoniyanın paytaxtı Skopyedə keçirilən Avropa çempionatında iki qızıl medal qazanıb. AZƏRTAC xəbər verir ki, noyabrın 7-dən 14-dək təşkil olunan WAKO versiyası üzrə qitə birinciliyində Azərbaycan təmsilçisi "Master Class" kateqoriyasında, 63 kiloqram çəki dərəcəsində iki versiya üzrə mübarizə aparıb.

İdmançımız "Light Contact" versiyasının finalında Portuqaliya təmsilçisi Emanuel Kortesi, "Kick Light" versiyasında isə Macarıstan idmançısı Marton Hası və İtaliya təmsilçisi Alessandro La Mantianı məğlub edərək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Beləliklə, Eduard Məmmədov karyerasında 13-cü dəfə Avropa çempionu tituluna sahib çıxıb. Qeyd edək ki, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İdman Cəmiyyətinin İdman-təlim şöbəsinin rəisi, polis polkovniki olan Eduard Məmmədov dəfələrlə dünya və Avropa çempionu olub. O, qazandığı qələbələri şəhidlərin xatirəsinə həsr etdiyini bildirib.

Bilmək istəyirəm

İşə bərpa iddiası ilə məhkəməyə müraciət edərkən əlavə hansı tələblər irəli sürə bilərəm?

Zərinə MƏMMƏDLİ,
Bakı şəhəri

- Sualınıza cavab olaraq bildiririk ki, cavabdeh qismində işəgötürənə qarşı əsas iddia ilə yanaşı, əlavə tələblər də irəli sürmək imkanınız mövcuddur. Belə ki, siz işəgötürənə qarşı əsas tələbdən başqa, əlavə olaraq maddi və mənəvi ziyan tələbi qaldıra, həmçinin Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinə əsasən ödənc, Əmək Məcəlləsinin 300-cü maddəsinin 1-ci hissəsinə görə, məcburi işburaxma müddəti üçün əməkhaqqı ödənilməsini tələb edə bilərsiniz.

Əmək Məcəlləsinin 172-ci maddəsinin 5-ci hissəsinin tələbinə görə, əməkhaqqının verilməsi işəgötürənin təqsiri üzündən gecikdirildikdə və bu hal fərdi əmək mübahisəsi yaratmayıbsa, hər gecikdirilmiş gün üçün işçiyə əməkhaqqının azı 1 faizi məbləğində ödənc verilməlidir.

Əmək Məcəlləsinin 300-cü maddəsinin 1-ci hissəsinə əsasən, işəgötürən əmək müqaviləsinə qanunsuz xitam verdikdə məhkəmə işçinin hüquqlarını bərpa edir. Bu hal o zaman baş verir ki, işəgötürən Məcəllənin 68, 69, 70, 73, 74 və 75-ci maddələrindəki xitam əsaslarını pozsun, 71 və 76-cı maddələrdəki qaydalara əməl etməsin və ya 79-cu maddədəki hallara məhəl qoymasın. Belə olduqda, məhkəmə işin faktik hallarını araşdıraraq məcburi işburaxma müddəti üçün əməkhaqqı ödənilməklə işçinin vəzifəsinə bərpası barədə qətnamə (və ya tərəflərin barışıq sazişinin təsdiqi barədə qərardad) çıxarır. Eyni zamanda məhkəmə qətnamədə işçiyə dəymiş zərərin işəgötürən tərəfindən ödənilməsini də nəzərdə tuta bilər.

Bundan başqa, iddia ərizəsi ilə məhkəməyə müraciət edərkən çəkdiyiniz məhkəmə xərclərinin cavabdehdən (işəgötürəndən) tutularaq sizə ödənilməsini də tələb etmək hüququnuz var.

Sualı cavablandırdı:
Paşa SƏFƏROV,
Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü

«AZƏRBAYCAN»
qəzetinin reklam xidməti
539-49-20

ALLAH RƏHMƏT ELƏSİN!

İqtisadiyyat Nazirliyinin rəhbərliyi və kollektivi nazirlik yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərliyə əzizi **İRA QAFAROVANIN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 538-35-55
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60, 434-55-58
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə

az.reklam@mail.ru

www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti
Tiraj 3312
Sifariş 1499
Qiyməti 60 qəpik